Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 68 (7795) ÇƏRŞƏNBƏ, 28 mart 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Azərbaycan pambıqçılığın inkişaf tempinə görə dünyada lider ölkədir

## *Bərdədə keçirilən pambıqçılığın inkişafına dair müşavirədə konkret tapşırıqlar verildi, yeni hədəflər müəyyənləşdirildi*

Bir vaxtlar pambıqçılıq sahəsində respublikanın ən qabaqcıl rayonlarından biri olan Bərdə rayonu yenidən öz şöhrətini geri qaytarır. Ulu öndər Heydər Əliyevin keçən əsrin 70-80-ci illərində məhz pambıqçılıqla bağlı 8 müşavirə keçirdiyi, vaxtilə 28 min hektar pambıq tarlasından 126 min tona yaxın məhsul tədarük edildiyi bu rayonda pambıqçılıq yenidən dirçəlməyə başlayıb. Əgər 2015-ci ildə Bərdədə cəmi 3 min ton pambıq yığılmışdısa, keçən il bu rəqəm 22 min 400 ton olub. Görülən tədbirlər nəticəsində iki il ərzində pambığın tədarükü təxminən 7-8 dəfə artıb.

### Üçüncü respublika müşavirəsi

Martın 26-da Bərdədə keçirilən pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində bu sahədə görülən işlərdən danışıldı və qarşıda duran vəzifələrlə bağlı konkret tapşırıqlar verildi.

Öncə onu vurğulayaq ki, dövlət başçısının iştirakı ilə Bərdədə keçirilən müşavirə pambıqçılığın inkişafına dair respublikada baş tutan sayca 3-cü müşavirə idi. Bundan öncə 2016-cı ildə Sabirabad, ötən ilin mart ayının sonunda isə Saatlı şəhərində müşavirələr keçirilib. Bu müşavirələrdə verilən tapşırıqlar, qarşıya qoyulan hədəflər düzgün müəyyənləşdirilib və mühüm nailiyyətlər qazanılıb. Son iki il ərzində pambıqçılığın bərpası istiqamətində görülən işlər bir daha bu sahənin çox böyük gələcəyinin olduğunu təsdiqləyib. “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı” isə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsinə əlavə təkan verib. Pambıqçılığın inkişafı ilə bağlı mərkəzləşdirilmiş idarəetmə sistemi yaradılıb. Prezident Administrasiyası, yerli icra orqanları, şirkətlər, fermerlər, zəhmətkeşlər artıq bir nöqtəyə vuraraq yaxşı nəticələrə imza atıblar. İki il ərzində əldə edilmiş rəqəmlər bunun ən yaxşı göstəricisidir.

### 18 min 800 hektardan 140 min hektaradək yüksəliş

Müşavirədə qeyd edildi ki, keçən il iqtisadi sahədə sabitləşmə ili olub, bu il isə inkişaf ilidir. Təkcə ilin iki ayı ərzində qeyri-neft sənayesi 8 faizdən çox, qeyri-neft sektoru 2,3 faiz, kənd təsərrüfatı 3,4 faiz, o cümlədən, bitkiçilik 40 faizdən çox artıb. Bu iqtisadi fəallıq həm də özəl sektorda iş yerlərinin yaradılmasına xidmət göstərir.

Aqrar sektorun strateji və ölkəyə valyuta gətirən mühüm sahələrindən biri olan pambıqçılığın inkişafı ilə bağlı aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq respublika üzrə pambıq əkini sahələri 18 min 800 hektardan 140 min hektara yüksəlib. İki il ərzində Azərbaycanda pambığın tədarükü 35 min tondan 207 min tona çatıb.

Pambıq əkininə verilən subsidiyalar, gübrə və pestisidlərin istifadəsinə tətbiq olunan güzəştlər, “Aqrolizinq” ASC tərəfindən texnikaların güzəştli şərtlərlə satılması, İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən güzəştli şərtlərlə ayrılan kreditlər bu sahənin inkişafına müsbət təsirini göstərib. Cari mövsümdə pambığın alış qiymətinin hər kiloqram üçün 0,10 AZN artırılaraq 0,60 AZN-ə çatdırılması, gübrələrə verilən güzəştlərin hər hektara 50 faiz, pestisidlərə verilən güzəştlərin isə 5 dəfə artırılması pambıqçıları sevindirib, bu sahəni daha gəlirli və fermerlər üçün cəlbedici edib.

Ümumiyyətlə, əmək tutumlu sahə olan pambıqçılığın inkişafı ilə bağlı ölkədə on minlərlə yeni iş yeri açılıb. Son illərdə pambıqçılıqla məşğul olan insanların sayı 200 minə yaxındır. Bu, əlbəttə ki, bölgələrdə işsizliyin aradan qaldırılması istiqamətində çox ciddi sosial sahədir. Bu sahə həm də çox gəlirlidir. Pambığın satışı üçün bazarlar axtarmağa da ehtiyac yoxdur. Çünki məhsul birjalarda satılır. Pambıqçılıq emal sənayesinə böyük təkan verir. Hazırda ölkədə pambıqtəmizləmə zavodları işləyir, həmçinin müəssisələrdə pestisid istehsal edilir.

### 2 il ərzində pambıq tədarükünü 6 dəfədən çox artıran ölkə

Müşavirədə qeyd edildi ki, bu il Sumqayıtda böyük gübrə zavodu fəaliyyətə başlayacaq. Yəni, artıq Azərbaycan özünü gübrələrlə təmin edəcək.

Bununla yanaşı, ölkədə suvarma texnikasının istehsalı da təşkil edilib. Bu texnikanın istifadəsi nəticəsində məhsuldarlıq artırıla bilər.

Fevral ayında Mingəçevir Yüngül Sənaye Parkının iki yeni müəssisəsinin fəaliyyətə başlaması bu istiqamətdə görülən işlərə təkan vermiş oldu. Belə ki, bu müəssisələrdə 20 min ton iplik istehsal olunacaq. Bu da əvvəlki dövrdə istehsal olunan ipliyin demək olar ki, yarısıdır.

Azərbaycan Prezidentinin söylədiyi kimi, əgər ölkəmizdə pambıqçılıq sürətlə inkişaf etməsəydi, yəqin ki, bu müəssisələrə ehtiyac olmayacaqdı. Çünki bu fabriklər ancaq daxili xammal əsasında uğurla fəaliyyət göstərə bilər: “Azərbaycan bu gün pambıqçılıqla bağlı inkişaf templərinə görə dünyada lider ölkədir. İnanmıram dünyada ikinci ölkə tapılsın ki, iki il ərzində pambıq tədarükünü altı dəfədən çox artıra bilsin”.

### Bu il 22 rayonda pambıq əkiləcək

Müşavirədə görülmüş işlərlə yanaşı, qarşıda duran vəzifələrdən də söz açıldı, mühüm tapşırıqlar verildi.

Qeyd edildi ki, növbəti illərdə əsas vəzifə məhsuldarlığı artırmaqdır. Keçən ilin təcrübəsi göstərir ki, bu sahədə böyük irəliləyiş var. “İndi əsas vəzifə ondan ibarətdir ki, bu müsbət dinamikanı saxlayaq, bunu artıraq və pambıqçılığın gələcək inkişafı ilə bağlı əlavə addımlar ataq. Bu il 22 rayonda pambıq əkiləcək və ümid edirəm ki, bütün bu rayonlarda məhsuldarlıq daha da yüksək olacaq”- deyən dövlət başçısı böyük həcmdə məhsul götürülməsinə baxmayaraq, bəzi rayonlarda məhsuldarlığın lazımi səviyyədə olmadığını söylədi və bunun səbəblərinin təhlil edildiyini diqqətə çatdırdı.

### Pambıqçılıq üçün 3 mindən çox texnika alınacaq

Əlbəttə ki, bu sahənin inkişafı müasir texnikaların istifadəsindən çox asılıdır. Qeyd edək ki, son iki il ərzində ölkədə kənd təsərrüfatı texnikasına 300 milyon manatdan çox vəsait ayrılıb.

Müşavirədə qeyd edilib ki, əvvəlki dövrdə təkcə 370 pambıqyığan kombayn alınıb və bu il əlavə 100 pambıqyığan kombayn, ümumiyyətlə, pambıqçılıq üçün 3 mindən çox texnika alınacaq. Texnikanın alınması üçün bu il dövlət büdcəsində 160 milyon manat vəsait nəzərdə tutulub. Bunun 118 milyon manatı pambıqçılıq texnikasına xərclənəcək.

### Məhsul yığımı vaxtında aparılmalı, ləngimələr olmamalıdır

Müşavirədə qeyd edildi ki, ölkədə pambıqçılıq ancaq intensiv üsullarla inkişaf etməlidir. Bu səbəbdən də torpaq fonduna çox ciddi yanaşılmalıdır. Tarla düşərgələri, içməli su ilə, nəqliyyatla təminat lazımi səviyyədə olmalıdır. Həm tədarükçü şirkətlər, həm yerli icra orqanları bu sahəyə xüsusi diqqət göstərməlidirlər.

Bununla yanaşı, məhsul yığımı vaxtında aparılmalı, ləngimələr olmamalıdır.Qəbul məntəqələri, pambıqtəmizləmə zavodları fasiləsiz elektrik enerjisi ilə təmin edilməlidir.

Keçən il olduğu kimi, bu il də bütün aidiyyəti qurumlar, mərkəzi, yerli icra orqanları, tədarükçü şirkətlər, fermerlər, zəhmətkeşlər birlikdə fəaliyyət göstərməlidirlər. Mövsüm ərzində mövcud olan, yeni, qarşıya çıxacaq problemlər dərhal öz həllini tapmalıdır və Azərbaycan bu mövsümü maksimum səmərə ilə başa vurmalıdır.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Bakıda dünya standartlarına cavab verən müasir hospital açılıb

*Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak edib*



Martın 27-də Bakının Nizami rayonu ərazisində Bona Dea Beynəlxalq Hospitalının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Bona Dea Beynəlxalq Hospitalının baş icraçı direktoru Faiq Əliyev və baş həkim Musa Abbasov dövlət başçısına və birinci xanıma bu tibb müəssisəsi barədə məlumat verdilər. Bildirildi ki, hospital tibbi avadanlığına və texniki təchizatına görə dünyada bu sahədə ən müasir standartlara cavab verən az sayda müalicə ocaqlarından biridir.

Azərbaycan Prezidenti hospitalın rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hospitalda yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, bina stasionar və diaqnostik hissələrdən ibarətdir. Stasionar hissə yeddimərtəbəli, diaqnostik hissə isə dördmərtəbəlidir. Hospitalda ürək-damar cərrahiyyəsi, invaziv-kardiologiya, mama-ginekologiya, neonatologiya, pediatriya, təcili tibbi yardım, reanimasiya, süni mayalanma, ümumi cərrahiyyə, ortopediya-travmatologiya, neyrocərrahiyyə, qulaq, burun və boğaz xəstəlikləri, göz xəstəlikləri, urologiya, anesteziologiya, daxili xəstəliklər, qastroenterologiya, nevrologiya, şüa diaqnostikası, tibbi laboratoriyalar, onkologiya, stomatologiya, qan bankı, fizioterapiya-reabilitasiya, mərkəzi sterilizasiya kimi bütün əsas tibbi xidmət sahələri fəaliyyət göstərəcək. Hospital 206 çarpayılıqdır. Təcili tibbi yardım şöbəsi isə 12 yerlikdir.

Dövlət başçısı və xanımı burada çalışan xarici həkimlərlə görüşdülər, onlarla söhbət etdilər.

Hospitalda ümumilikdə 850 nəfərdən ibarət tibbi heyətin işləyəcəyi nəzərdə tutulur. Onlardan 22 həkim və 30 orta tibb heyəti Avropadan dəvət olunmuş yüksək ixtisaslı mütəxəssislərdir. Bu mütəxəssislər dünyada öz sahələri üzrə məşhur olan tanınmış tibb işçiləridir. Burada çalışan tibb mütəxəssisləri arasında ABŞ, Kanada, Avstraliya, Almaniya, İtaliya, Fransa, Belçika, Niderland, Xorvatiya, Serbiya, Yunanıstan, İspaniyadan olan yüksək peşəkar həkimlər var.

Pediatriya və neonatologiya şöbəsində azyaşlıların müalicəsi üçün hər cür şərait yaradılıb. Burada ümumi pediatriya, genetik konsultasiya, pediatrik nevrologiya, kardiologiya və cərrahiyyə xidmətləri göstəriləcək. Şöbədə, eyni zamanda qabaqcıl laparoskopik prosedurlar da icra olunacaq.

Hospitalın şüa diaqnostika-radiologiya şöbəsi də ən müasir tibbi avadanlıqla təchiz olunub. Rentgen, MRT, kompüter tomoqrafiya və ultrasəs müayinəsi avadanlığının quraşdırıldığı şöbə çoxmetodlu diaqnostik və müdaxiləvi vizualizasiya xidmətlərini təklif edir. Burada xəstələrə rəqəmsal radioqrafiya, rəqəmsal flüoroskopiya və digər xidmətlər də göstəriləcək.

Diqqətə çatdırıldı ki, müəssisənin kliniki laboratoriya şöbəsi bütün xəstələri həftənin və sutkanın istənilən vaxtı hərtərəfli müayinələr və qan bankı xidmətləri ilə təmin edir. Burada müxtəlif laborator müayinələr aparmaq üçün dünyanın aparıcı şirkətlərinin istehsalı olan və ən müasir standartlara cavab verən avadanlıq quraşdırılıb. Bu avadanlıq laborator müayinələri yüksək keyfiyyət və dəqiqliklə, həmçinin qısa müddətdə icra etməyə imkan yaradır. Laboratoriyanın məlumat sistemi xəstəxananın məlumat sistemi ilə əlaqəlidir. Kliniki kimyəvi laboratoriyada tamamilə avtomatlaşdırılmış nəzarət sistemi mövcuddur.

Son illərdə ölkəmizdə həyata keçirilən dövlət siyasətində səhiyyə sisteminin təkmilləşdirilməsi və inkişafı əsas yerlərdən birini tutur. Ən mühüm məqamlardan biri odur ki, Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi, gələcəyimiz olan uşaqların sağlam yetişməsi istiqamətində icra edilən layihələr dövlət başçısının daim diqqət və nəzarətindədir. Vətəndaşların məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanması ilə bağlı çox mühüm işlər görülür.

Bu gün Azərbaycanda səhiyyənin inkişafına, bu sahədə əsaslı islahatların aparılmasına Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun dəstəyi ilə ölkəmizdə çoxlu sayda tibb ocaqları inşa olunub, mövcudları isə müasir səviyyədə yenidən qurulub.

*Ardı 2-ci səh.*



# 11 APREL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR



# “ELS-Müstəqil Araşdırmalar Mərkəzi” prezident seçkiləri ərəfəsində keçirdiyi rəy sorğusunun nəticələrini açıqlayıb

“ELS-Müstəqil Araşdırmalar Mərkəzi” İctimai Birliyi Azərbaycanda prezident seçkiləri ərəfəsində ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi durumun qiymətləndirilməsi, seçici fəallığı, aktual məsələlərə əhalinin münasibətinin müəyyənləşdirilməsi məqsədilə cari ilin fevral-mart aylarında ölkənin 68 rayonunda (Naxçıvan Muxtar Respublikasının ərazisi və işğal olunmuş rayonlar istisna olunmaqla) 1580 respondentin rəy sorğusunu keçirib.

AZƏRTAC xəbər verir ki, martın 27-də Beynəlxalq Mətbuat Mərkəzində sorğunun nəticələri elan edilib.

Mərkəzin rəhbəri İradə Yaqubova bildirib ki, respondentlərin evlərində şəxsi müsahibə üsulu ilə keçirilmiş rəy sorğusu yaşı 18 və 18-dən yuxarı olan insanları əhatə edib. Sorğu xüsusi hazırlıq kursunu keçmiş intervüerlər qrupu tərəfindən aparılıb. Yaşayış məntəqələrinin seçimi çoxpilləli stratifikasiya edilmiş təsadüfi ərazi seçimi üsulu ilə aparılıb və rayonların bərabər əhatə olunması təmin edilib. Sorğunun əhatə etdiyi yaşayış məntəqələrinin 50,4 faizini şəhər, 6,2 faizini qəsəbələr, 43,4 faizini isə kəndlər təşkil edib.

Sorğuda iştirak edən respondentlərin 49,4 faizini kişilər, 50,6 faizini isə qadınlar təşkil edib. Yaş kateqoriyalarına görə respondentlərin 28,7 faizi 18-29 yaş, 22,3 faizi 30-39 yaş, 18,8 faizi 40-49 yaş, 16,8 faizi 50-59 yaş, 13,4 faizi isə 60 və ondan yuxarı yaş kateqoriyalarına aid olub.



2013-cü il prezident seçkilərindən sonra dövlətimizin idarə edilməsində qazanılan uğurları qeyd edən respondentlərin 94,3 faizi uğurların olduğunu vurğulayıblar. Bu uğurların sırasında təhlükəsiz yaşayış şəraiti (81,6 faiz), sabit siyasi vəziyyət (78,9 faiz), Qarabağ probleminin həlli istiqamətində fəaliyyət (44,3 faiz) və digərləri qeyd olunub.

Növbəti mərhələdə rəyi soruşulanlara ölkə Prezidentinin həyata keçirdiyi siyasətlə bağlı suallar verilib. Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasəti qiymətləndirənlərin 94,1 faizi bu siyasəti dəstəklədiklərini, 2,9 faizi dəstəkləmədiklərini bildirib. Rəyi soruşulanların 3 faizi cavab verməkdə çətinlik çəkib.

Prezident İlham Əliyevin həyata keçirdiyi daxili siyasəti qiymətləndirdikdə rəyi soruşulanların 86 faizi bu siyasəti dəstəklədiklərini, 6,3 faizi isə dəstəkləmədiklərini qeyd edib. Rəyi soruşulanların 7,7 faizi suala cavab verməkdə çətinlik çəkib.

Son 5 ildə Qarabağ probleminin həlli istiqamətində ölkə Prezidentinin atdığı addımları qiymətləndirən respondentlərin 65,3 faizi atılan addımları çox uğurlu, 23,2 faizi uğurlu, 6,3 faizi uğursuz hesab edib. Rəyi soruşulanların 5,2 faizi isə cavab verməkdə çətinlik çəkib.

Ermənistan-Azərbaycan münaqişəsinin həllində 25 ildən artıqdır iştirak edən beynəlxalq strukturların fəaliyyətinə münasibət birmənalı olub. Belə ki, ATƏT-in Minsk qrupu, AŞ PA, BMT təmsilçilərinin fəaliyyətini uğurlu hesab edənlərin sayı cəmi 7 faiz olub. Bu qurumların fəaliyyətini uğursuz hesab edənlər 86,9 faizdir. Cavab verməkdə çətinlik çəkənlərin nisbi sayı 6 faiz təşkil edib. Uğursuz fəaliyyəti qeyd edənlərin 28,3 faizi, yəni üçdəbiri bu qurumların problemin həllinə münasibətlərini laqeyd, hətta ermənipərəst hesab ediblər.

Sorğu zamanı respondentlərə “Növbəti prezident seçkiləri indi, məsələn, gələn həftə keçirilərsə kimə səs verərdiniz” sualı ünvanlanıb. Lakin sorğu prezident seçkiləri elan olunduğu vaxta təsadüf etdiyindən respondentlər bu suala 2018-ci il aprel ayının 11-də Azərbaycanda keçiriləcək prezident seçkilərini nəzərdə tutaraq cavab veriblər. Seçkilərdə iştirak edəcəklərinə dair suala cavab verən rəyi soruşulanların 66,5 faizi seçkilərdə həmişə iştirak etdiklərini qeyd edərək səs verəcəklərini bildirib. Respondentlərin 26,1 faizi ola bilər ki, iştirak edəcəklərini, 6,8 faizi heç vaxt seçkilərdə iştirak etmədiklərini deyib. Cavabdan imtina edənlərin sayı 0,6 faiz təşkil edib. Respondentlərə 2013-cü ildə keçirilmiş prezident seçkilərində kimə səs verdikləri barədə sualla da müraciət edilib. Onların 83,3 faizi İlham Əliyevi, 1,2 faizi başqa namizədləri dəstəklədiklərini deyib. Rəyi soruşulanların 8,6 faizi seçkilərdə müxtəlif səbəblərdən, o cümlədən yaşları çatmaması səbəbindən iştirak etməyib. Respondentlərin 6,9 faizi cavab verməkdə çətinlik çəkib.

Ölkəmizdə 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkilərində edəcəkləri seçimi açıqlayan respondentlərin 84,1 faizi seçkilərdə birmənalı olaraq İlham Əliyevə səs verəcəklərini bildirib. Rəyi soruşulanların 0,2 faizi başqa namizədlərə səs vermək niyyətindədir. Respondentlərin 9,2 faizi hələ seçim etmədiklərini qeyd edib.

# Bakıda dünya standartlarına cavab verən müasir hospital açılıb

*Əvvəli 1-ci səh.*









Bu layihələrin icrası zamanı səhiyyə müəssisələri dünyanın aparıcı şirkətlərinin müasir tibbi avadanlığı ilə təchiz olunur.

Bildirildi ki, Bona Dea Beynəlxalq Hospitalında helikopterlərin enməsi üçün meydança da yaradılıb.

Hospitalın ən müasir tələblərə cavab verən konfrans zalında müxtəlif toplantılar, iclas, görüş, müşavirə və digər tədbirlər təşkil etmək, həmçinin peşəkar həkimlərin gənc mütəxəssislərə təlimlər keçmələri üçün də hər cür şərait mövcuddur. Ümumi tutumu 145 yerlik olan bu zalda cərrahi əməliyyatları birbaşa izləmək mümkündür.

Dövlət başçısı konfrans zalında hospitalda çalışan xarici həkimlərlə söhbət etdi.

Prezident **İlham ƏLİYEV:**

**-** Siz burada güclü tibb mərkəzi qurmağa kömək göstərirsiniz. Sizi Bakıda görməyə çox şadam. İndi bizim yüksək səviyyəli avadanlığımız və həkimlərimiz var. Bizə lazım olan məhz budur - avadanlıq və tibbi xidmət. Mənə məlumat verilib ki, siz regionda, düşünürəm, ən yaxşı tibb mərkəzlərindən birini, bəlkə də ən yaxşısını yaratmağa kömək etmək üçün xəstəxana ilə sıx şəkildə işləyirsiniz.

Azərbaycan Prezidentinə və birinci xanıma məlumat verildi ki, palatalarda xəstələrin müalicəsinin yüksək səviyyədə təşkili üçün bütün zəruri şərait yaradılıb. Tibb müəssisəsinin qarşısına qoyduğu əsas məqsədlərdən biri də xəstələri səhiyyənin yüksək standartları ilə təmin etməklə yanaşı, müalicənin bütün mərhələləri üzrə innovasiyaların tətbiqidir. Bu məqsədlə burada quraşdırılan və İKT-nin yeniliklərinə əsaslanan qurğular xəstələrin müalicəsinin yüksək səviyyədə təmin olunmasına imkan verir.

Hospitalın əməliyyat bloku da texniki təminatına görə mövcud olan bütün dünya standartlarına tam cavab verir. Tibb müəssisəsində 10 əməliyyatxana, 2 angioqrafiya otağı yaradılıb. Ümumilikdə burada fəaliyyət göstərən Cərrahiyyə Xidmətlər Klinikasında laparoskopik prosedurlar, açıq cərrahiyyə və digər cərrahi əməliyyatlar aparılacaq.

Beynəlxalq hospitalın ürək-damar cərrahiyyəsi şöbəsi ən müasir qeyri-invaziv və invaziv diaqnostik avadanlıqla təchiz edilib. Burada açıq ürək cərrahiyyəsini yerinə yetirmək mümkündür. Bundan başqa, şöbədə ürək çatışmazlığı, anadangəlmə ürək xəstəliyi cərrahiyyəsi və digər əməliyyatlar yerinə yetirilir. Əməliyyatxanada quraşdırılan avadanlıq bu sahədə dünyanın aparıcı şirkətlərinin məhsullarıdır. Hospitalda ümumilikdə 70-dən artıq tibbi avadanlıq inteqrasiya olunub ki, bu da vahid mərkəzdən idarəetmənin təmin edilməsinə şərait yaradır.

Tibb müəssisəsinin ümumi reanimasiyası 28, neonatoloji reanimasiyası 10, kardioloji reanimasiyası isə 8 çarpayılıqdır. Xəstələrin rahatlığı üçün reanimasiya otaqları bir-birindən ayrı təşkil olunub. Bu şöbədə də tibbin son nailiyyətlərinə əsaslanan avadanlıq quraşdırılıb. Bir sözlə, hospitalın bütün şöbələrində quraşdırılan son model tibb avadanlığı və qurğuları xəstələrə yüksək səviyyədə tibbi xidmət göstərməyə imkan verir, onların müayinə və müalicəsini, profilaktik işləri müasir tələblər səviyyəsində qurmaq üçün geniş şərait yaradır. Xəstəxanada ən müasir səviyyədə prenatal diaqnostik avadanlıq var. Hospital Avropanın məşhur tibbi və paramedikal heyəti ilə işləyir, aparıcı tibb institutları ilə əməkdaşlıq edir. Burada fəaliyyət göstərən aptekdə bütün dərmanlar elektron-reseptdən istifadə edilərək həkimin cavabdehliyi altında təyin olunur, qapalı və nəzarət edilən avtomatlaşdırılmış paylanma kabinetlərində paylaşdırılır.

Xəstəxanadakı tibbi avadanlıq ABŞ, Almaniya, Yaponiya, İtaliya, Fransa, İngiltərə, İsveç, Belçika və İspaniyanın aparıcı şirkətlərinin istehsalıdır. Onların arasında "Getinge Group", "MAQUET", "Siemens", "Drager", "Hill-Room", "Olympus", "Aesculap", "Karl Storz", "Sirona", "Agoko", "Abbott", "BioMerieux", "B-Braun", "Swisslog", "ZEISS" və s. müasir tibbi avadanlığın istehsalı üzrə ixtisaslaşan tanınmış şirkətlərin məhsulları var. Bu avadanlıq müayinəni dəqiqliklə yerinə yetirməyə, eyni zamanda müalicə işini yüksək səviyyədə qurmağa imkan yaradır.

Tibb ocağında texnoloji yeniliklər tətbiq olunub. Burada yaradılan pnevmo-poçtla müxtəlif şöbələrə, o cümlədən qəbul və laboratoriya şöbələrinə analiz nümunələri, xəstələr



üçün isə dərmanlar göndərmək mümkündür. Hospital tibbi xidmətlər üzrə dünyada ən nüfuzlu keyfiyyət və təhlükəsizlik standartları olan JCI standartlarına uyğun layihələndirilib və qurulub. Tibbi heyətin və xəstələrin qidalanması üçün müəssisənin mətbəxində müasir avadanlıq quraşdırılıb, yeməkxanada lazımi şərait yaradılıb.

Diqqətə çatdırıldı ki, hospitalın binasının ümumi sahəsi 40 min kvadratmetrə yaxındır. Havalandırma, yanğından mühafizə və videomüşahidə sistemləri binanın bütün ərazisini əhatə edir. Tibb ocağı fasiləsiz elektrik enerjisi ilə təmin olunur. Binada 2500 kilovoltluq UPS dəstəyi, 7000 kilovoltluq transformator quraşdırılıb.

Ölkəmizdə səhiyyənin müasirləşdirilməsi istiqamətində son illər icra olunan layihələrin tərkib hissəsi kimi yeni hospitalın istifadəyə verilməsi də vətəndaşların sağlamlığının təmin edilməsi, profilaktik tədbirlərin görülməsi, müayinə və müalicənin yüksək səviyyədə təşkil olunması işinə yeni imkanlar açır.

Bona Dea Beynəlxalq Hospitalında yaradılan şəraitlə tanışlıqdan sonra dövlət başçısı və birinci xanım tibb ocağının kollektivi ilə görüşdülər.

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Mən sizi ürəkdən salamlayıram və təbrik edirəm.

Bu gün Bakıda gözəl xəstəxana açılır. Bu, çox gözəl, əlamətdar hadisədir. Xəstəxana çox gözəl təəssürat bağışlayır, həm xarici görünüşü, həm də daxili tərtibatı ən yüksək səviyyədədir. Burada ən müasir avadanlıq quraşdırılıb. Əminəm ki, xəstəxanada vətəndaşlara çox yüksək tibbi xidmət göstəriləcək.

Mən xəstəxana ilə tanış olarkən görürəm ki, çox böyük işlər görülüb. Bütün işlər ən yüksək səviyyədə təşkil edilib. Bu xəstəxana xarici mütəxəssislərin dəstəyi ilə ərsəyə gəlib. Əminəm ki, burada çalışan həkimlər, tibbi heyət xəstələrə yüksək xidmət göstərəcəklər. Mənə verilən məlumata görə, burada 800-dən çox iş yeri yaradılır. Həkimlər, tibbi heyət üçün burada gözəl şərait yaradılıb.

Bu xəstəxananın açılması ölkəmizin ümumi inkişafının göstəricisidir. Ancaq sürətli inkişaf edən ölkələrdə belə gözəl tibb ocaqları yaradılır. Hesab edirəm ki, bu xəstəxana nəinki Azərbaycanın, regionun ən qabaqcıl xəstəxanalarından biri olacaq, bəlkə də birincisi olacaq. Ümid edirəm ki, gün gələcək və turistlər Azərbaycana həm də tibbi xidmət almaq üçün gələcəklər. Yəni bu xəstəxanada yaradılan şərait belə imkanları təmin edir. Burada Azərbaycan vətəndaşlarına yüksək tibbi xidmət göstəriləcək. Ölkəmizə gələn qonaqlar da, əminəm ki, bu imkanlardan istifadə edəcəklər.

Son illərdə Azərbaycanda 600-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir edilib. Biz səhiyyə sisteminin maddi-texniki bazasını böyük dərəcədə gücləndirə bilmişik. Təkcə bu il altı şəhərdə yeni xəstəxana tikiləcək. Beləliklə, Azərbaycanın hər bir şəhərində ən yüksək tibbi şərait yaradılır. Altı yüzdən çox xəstəxananın, tibb müəssisəsinin yaradılması, əlbəttə ki, böyük vəsait tələb edir. Azərbaycan dövləti bu vəsaiti ayırır.

Səhiyyə sisteminin təkmilləşdirilməsi bizim üçün prioritet məsələdir. Çünki insan sağlamlığı hər bir cəmiyyət, hər bir dövlət üçün əsas məsələdir. Son illər ərzində görülmüş işlər nəticəsində insanların ömrünün uzunluğu artır və bu, gözəl göstəricidir. Bu gün Azərbaycanda istənilən xəstəlik müalicə oluna və onun diaqnostikası aparıla bilər. Yəni diaqnostik müayinə, müalicə - bütün bunlar kompleks şəkildə təmin edilir. Bir məsələni də xüsusi olaraq diqqətə çatdırmaq istəyirəm. Bir neçə ildir ki, Azərbaycanda dövlət tərəfindən pulsuz tibbi müayinə həyata keçirilir. Hər il beş milyon Azərbaycan vətəndaşı bu xidmətdən istifadə edir. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə bu məsələ öz həllini tapmağa başlamışdır. Hazırda növbəti tibbi müayinə davam edir.

Beləliklə, Azərbaycanda sosial sahənin əsas istiqaməti olan səhiyyənin inkişafı üçün çox böyük işlər görülür. Xəstəxanalar tikilir, avadanlıq ən müasir standartlara cavab verir, tibbi xidmətin səviyyəsi artır və belə gözəl əsərlər yaradılır. Həmçinin bu xəstəxanada müalicə işində xarici mütəxəssislər də iştirak edəcəklər. Mənə məlumat verildi ki, daim burada Avropadan, digər ölkələrdən yüksək biliklərə malik olan mütəxəssislər işləyəcəklər. Mən çıxışımın qalan hissəsini ingilis dilində davam etdirəcəyəm.

Mən, həmçinin hələ Azərbaycan dilini başa düşməyənlərə, xüsusilə də əcnəbi qonaqlarımıza müraciət etmək, belə dərin təəssürat doğuran tibb mərkəzinin yaradılmasına verdikləri töhfəyə görə onlara minnətdarlığımı bildirmək istərdim. Artıq qeyd etdiyim kimi, düşünürəm ki, bu, təkcə Azərbaycanda deyil, regionda ən yaxşı tibb mərkəzidir. Yəqin ki, vaxt gələcək biz tibbi turizmin də Azərbaycana gəlməsinin şahidi olacağıq. Ölkəmizə gələn turistlərin sayı ildən-ilə artır. Ümidvaram ki, bizə tibbi məqsədlər üçün gələn turistlər də olacaq.

Çox şadam ki, bu xəstəxanada əcnəbi və yerli mütəxəssislərin fəaliyyətlərinin çox mühüm vəhdəti var. Həmçinin düşünürəm ki, xəstəxananın ən mühüm fəaliyyət sahələrindən biri yerli tibbi heyətin hazırlanması və təlimi olacaq. Fikrimcə, müalicə, diaqnostika və təlimin vəhdəti bu xəstəxananı çox xüsusi edəcək. Əlbəttə ki, zənnimcə, digər ölkələrdən olan qonaqlarımızın, yüksək səviyyəli mütəxəssislərin bu prosesdə fəal iştirakı daha çox pasiyent cəlb edəcək.

Tanışlıq zamanı mən bildirdim ki, biz hazırda Bakıda müasir avadanlıqla təchiz olunmuş və çox yüksək tibbi xidmət göstərən dünya səviyyəli tibb mərkəzinin olması ilə bağlı Azərbaycan əhalisini məlumatlandırmalıyıq. Burada hər növ müalicə, ən mürəkkəb əməliyyatlar həyata keçiriləcək və bu, Azərbaycan xalqının mənafeyinə xidmət edəcək.

Belə böyük xəstəxananın yaradılması, həmçinin ölkəmizin sürətli inkişafını əks etdirir. Biz sosial sahəyə, xüsusilə səhiyyə sahəsinə çox böyük diqqət ayırırıq. Son illər ərzində biz yüzlərlə yeni xəstəxana və tibb mərkəzini tamamilə yenidən qurmağa və tikməyə müvəffəq olmuşuq. Lakin bu, əlbəttə ki, nadir tibb mərkəzidir.

Tanışlıq məndə çox dərin təəssürat yaratdı. Düşünürəm ki, burada sizdə olanların hamısı mənə göstərilib. Sizi bu nailiyyət münasibətilə təbrik etmək istərdim. Sizə uğurlar arzu edirəm. Bizim beynəlxalq və yerli komandamıza uğurlar arzu edirəm. Əminəm ki, buraya müalicə üçün gələnlər evlərinə sağlam qayıdacaqlar. Təşəkkür edirəm və sizi təbrik edirəm.

* * *

Bona Dea Beynəlxalq Hospitalının idarə heyətinin üzvü **Herviq FLİRAKERS** dedi:

- Mənim adım Herviqdir. Mən Bona Dea Beynəlxalq Hospitalının idarə heyətinin üzvüyəm. Təntənəli açılış münasibətilə bizə baş çəkdiyinizə görə Sizə və xanımınıza təşəkkürümüzü bildirmək istərdik.

Siz ən müasir mərkəz, analoqu olmayan avadanlıq gördünüz. Lakin biz həmçinin xəstəxanada fəaliyyət göstərmək üçün ən müasir və analoqu olmayan komanda yaradırıq. Bizim müxtəlif akademik institutlar və sənaye tərəfdaşlarımızla beynəlxalq əməkdaşlığımız sayəsində ən yüksək səviyyəli səhiyyə xidmətini Bakıya gətirə biləcəyik. Biz, həmçinin yeni tibbi texnologiyalar təqdim edə biləcəyik. Biz Sizə təminat veririk ki, bütün bunlar Azərbaycan xalqının sağlamlığına xidmət edəcək. Biz komanda olaraq Sizə təminat veririk.

* * *

Sonra xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hospitalın təcili tibbi yardım şöbəsi ilə də tanış oldular.

Məlumat verildi ki, təcili tibbi yardım şöbəsi də ən müasir səviyyədə qurulub. Şöbə xəstələrin rahat və təcili daşınmasına imkan verən nəqliyyat vasitələri ilə təmin edilib. Təcili tibbi yardım şöbəsi Azərbaycanda ilk dəfə olaraq "Mercedes-Benz" markalı ən yeni model iki reanimobil və bir transporter avtomobili ilə təchiz edilib. Azərbaycanın istənilən regionunda operativ və fasiləsiz təcili tibbi yardım göstərmək üçün briqada qısa müddət ərzində özünü çağırış yerinə çatdırmaq iqtidarındadır.

Hospitalla tanış olan dövlət başçısı və birinci xanım tibb ocağının kollektivinə uğurlar arzuladılar.

## Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Seçki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 274, № 12, I kitab, maddə 680; 2004, № 6, maddə 416, № 11, maddə 891; 2005, № 2, maddə 62, № 4, maddə 278, № 7, maddələr 576, 584, № 12, maddə 1091; 2007, № 7, maddə 712; 2008, № 6, maddə 457; 2009, № 2, maddə 44; 2010, № 4, maddə 276, № 7, maddə 592; 2011, № 3, maddə 163; 2012, № 5, maddə 409; 2013, № 6, maddə 592; 2015, № 5, maddə 490; 2017, № 5, maddə 705; Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 917-VQD nömrəli Qanunu) 27.1-ci maddəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Mərkəzi Seçki Komissiyasının üzvünün, sabiq üzvünün və onun ailə üzvlərinin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2018-ci il*

## "Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1022-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1022-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 mart 2018-ci il*

## Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyəti ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dövlət-din münasibətləri sahəsində fəaliyyətin tənzimlənməsi, mövcud dini konfessiyaların dəstəklənməsi, mənəvi dəyərlərin qorunması və inkişafı, dini etiqad sahəsində maarifləndirmə işinin aparılması Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun qarşısında başlıca vəzifə kimi müəyyənləşdirilmişdir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyətinin təşkili məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1756 nömrəli Fərmanının 1.14.3.3.9-cu yarımbəndində nəzərdə tutulmuş vəsaitdən Mənəvi Dəyərlərin Təbliği Fonduna 6100,0 min (altı milyon yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 mart 2018-ci il*

**11 APREL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR**

# Mərkəzi Seçki Komissiyasında MDB PA-nın ekspert qrupu ilə görüş olub



Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasının (MDB PA) Azərbaycan Respublikasında keçiriləcək prezident seçkilərinin uzunmüddətli müşahidəsi üzrə ekspert qrupu martın 27-də Mərkəzi Seçki Komissiyasında (MSK) sədr Məzahir Pənahovla görüşüb.

MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan sədr seçkilərdə şəffaflığın təmin olunması baxımından müşahidəçilik institutunun böyük əhəmiyyət kəsb etdiyini bildirib və MDB Parlament Assambleyasından olan uzunmüddətli müşahidəçilərin qarşıdan gələn seçkiləri izləməsindən məmnun olduğunu vurğulayıb. Qrupun rəhbəri, MDB PA-nın Demokratiyanın, parlamentarizmin inkişafı və vətəndaşların seçki hüquqlarının monitorinqi üzrə Beynəlxalq İnstitutunun direktoru Dmitri Qladey bildirib ki, rəhbərlik etdiyi qrup müxtəlif ölkələrin nüfuzlu ekspertlərindən təşkil olunub. Qrupun məqsədi Azərbaycanda prezident seçkilərinə hazırlığın vəziyyəti ilə tanış olmaq və aparılan müşahidələrin nəticəsi olaraq hesabat hazırlamaqdır.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov qonaqların xahişi ilə aşağı seçki komissiyalarının üzvləri üçün treninqlər də daxil olmaqla, həyata keçirilmiş genişmiqyaslı maarifləndirmə layihələri, seçici siyahılarının dəqiqləşdirilməsi istiqamətində atılmış addımlar və seçkilərə son hazırlıq işlərindən danışıb, beynəlxalq müşahidəçiləri maraqlandıran sualları cavablandırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# İndiyədək MSK-da 383 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib

İndiyədək Mərkəzi Seçki Komissiyasında (MSK) 383 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. Onlar 37 beynəlxalq təşkilatı təmsil etməklə 49 ölkənin vətəndaşlarıdır. AZƏRTAC xəbər verir ki, bu barədə **sechki-2018.az** saytına MSK-nın media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədli məlumat verib.

O qeyd edib ki, indiyədək 53 min 366 yerli müşahidəçi də akkreditasiyadan keçib. Onlardan 1139-u MSK-da, 52 min 227-si isə dairə seçki komissiyalarında akkreditasiyadan keçib. Şahin Əsədli əlavə edib ki, bütün bunlarla yanaşı, siyasi partiyalar tərəfindən aşağı seçki komissiyalarına 4909 məşvərətçi səs hüquqlu üzv təyin olunub.

# Ağdamda seçkilərin demokratik, şəffaf və ədalətli keçirilməsi üçün lazımi şərait yaradılıb

Ağdam rayonunda aprelin 11-də keçiriləcək prezident seçkilərinə hazırlıq işləri Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi “Təqvim planı”na uyğun olaraq davam etdirilir.

119 saylı Ağdam kənd seçki dairəsi dairə seçki komissiyasından AZƏRTAC-a bildiriblər ki, dairənin tərkibinə daxil olan 42 seçki məntəqəsi üzrə 42 min 224 seçici qeydə alınıb. Seçicilərdən 753 nəfəri ilk dəfə səs verən gənclərdir ki, onlardan da 204-nün 18 yaşı bu il tamam olub. Seçicilərin 1295 nəfərinin yaşı 80-100, 4 seçicinin yaşı isə 100-dən artıqdır. 21 saylı seçki məntəqəsində qeydə alınmış 1902-ci il təvəllüdlü Mənzər Həsənova rayonun ən yaşlı seçicisidir.

Prezident seçkilərinin demokratik, şəffaf və ədalətli keçirilməsi üçün bütün məntəqələrdə lazımi şərait yaradılıb. Seçki məntəqələrinin hamısında cari təmir işləri aparılıb. Bütün məntəqələr zəruri texniki vasitə və metodiki vəsaitlərlə, elektrik enerjisi, rabitə şəbəkəsi və yanğın təhlükəsizliyi ilə təmin olunub. Seçicilərin öz mövqelərini sərbəst şəkildə bildirmələri üçün kabinələr qoyulub. Seçki məntəqələrində katib və üzvlər, habelə seçkini izləyəcək beynəlxalq və yerli müşahidəçilər üçün yerlər müəyyənləşdirilib.

Mərkəzi Seçki Komissiyasının xətti ilə dairə və məntəqə seçki komissiyaları üzvlərinin maarifləndirilməsi və peşə hazırlığının artırılması məqsədilə treninq və ixtisaslaşdırılmış kurslar keçirilib. Seçkiqabağı təşviqatın aparılması məqsədilə müvafiq yerlər ayrılıb, seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqat materiallarının yerləşdirilməsi üçün lövhələr qoyulub.

“Təqvim planı”na uyğun olaraq hazırda seçicilərə səsvermənin keçirilmə tarixi, vaxtı və yeri (ünvanı) barədə bildirişlər paylanılır, müşahidəçilərin qeydə alınması davam etdirilir. Bu günədək 392 müşahidəçi dairə seçki komissiyasında qeydiyyatdan keçib.

Bu əhəmiyyətli prosesdə məntəqə seçki komissiyalarının da üzərinə böyük məsuliyyət düşür. Dairə üzrə digər məntəqələrdə olduğu kimi, Bənövşələr qəsəbəsi 2 saylı orta məktəbdə yerləşən 21 saylı məntəqədə də seçkilərə hazırlıq işləri yekunlaşıb.

Məntəqə seçki komissiyasının sədri Tünzalə Vəliməmmədova bildirib ki, dəqiqləşdirilmiş son siyahıya əsasən 1357 seçici qeydə alınıb. Onlardan 12-si səsvermədə ilk dəfə iştirak edəcək gənclərdir. Məntəqədə seçkilərin şəffaf və demokratik keçirilməsi üçün hər cür şərait yaradılıb, tibb otağı, uşaqlı analar üçün otaqlar təşkil edilib. Seçici siyahıları, çağırış plakatları seçki məntəqəsinin girişində, nəzərəçarpacaq yerlərdə asılıb. Məntəqə səsvermə kabinələri, seçki qutuları ilə təmin olunub, bildirişlər hazırlanıb. Səsvermə gününə 7 gün qalanadək səsvermənin keçirilmə tarixi, vaxtı və yeri barədə bildirişlərin seçicilərə paylanması başa çatacaq.

# Prezident seçkiləri ilə əlaqədar Ankarada KİV-in müraciətlərinə baxılır

Aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə əlaqədar Ankara şəhərindəki səfirliyimizdə səsvermənin gedişinin kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılması uçun jurnalistlərə hər cür şərait yaradılacaq. Sechki-2018.az saytının xəbərinə görə, səfirlikdə fəaliyyət göstərən məntəqə seçki komissiyasından bildirilib ki, səsvermənin gedişini işıqlandırmaq istəyən KİV-in müraciətlərinə baxılır.

Xatırladaq ki, Ankaradakı səfirlikdə 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə 30 saylı məntəqə seçki komissiyası fəaliyyət göstərir. Burada Türkiyənin Ankara, Adana, Mersin, Kayseri və səfirliyin konsulluq şöbəsinin fəaliyyət dairəsində olan başqa bölgələrdə yaşayan, işləyən və konsulluq qeydiyyatında olan digər vətəndaşlarımız səs vermək hüququna malikdirlər.

# Qəbələdə 115 yaşlı seçici səs verəcək

116 saylı Qəbələ seçki dairəsində yaşı 100-dən yuxarı olan iki seçici iştirak edəcək. Onlardan ən yaşlısı 115 yaşındadır. Bu barədə sechki-2018.az saytına dairə seçki komissiyasının sədri Ramiz Əsədov məlumat verib. O qeyd edib ki, seçki dairəsində 54 məntəqə fəaliyyət göstərir. Məntəqələr üzrə seçicilərin sayı 43 min 743 nəfərdir. Onlardan 1230 nəfəri ilk dəfə səs verəcək. 18 yaşında olan seçicilərin sayı 824 nəfər təşkil edir. Yaşı 80-100 arasında olan seçicilərin sayı isə 579 nəfərdir.

Prezident seçkilərinə hazırlıq prosesinin yüksək səviyyədə davam etdiyini deyən R.Əsədovun sözlərinə görə, seçki məntəqələrində 10 veb-kamera quraşdırılıb: “Məntəqələr seçkiyə tam hazır vəziyyətdədir. Məntəqələrin böyük əksəriyyəti orta məktəblərdə yerləşir. Məktəblərin də çoxu yeni tikili və yaxud əsaslı təmir olunmuş tədris binalarıdır. Bütün məntəqələr MSK tərəfindən lazımi texniki avadanlıqlarla təchiz edilib, rabitə və elektrik sistemi qaydaya salınıb. Səsvermə kabinələri, generatorlar, seyflər, təşviqat və məlumat lövhələri quraşdırılıb”.

116 saylı Qəbələ seçki dairəsində seçkiləri izləmək üçün 546 müşahidəçi qeydə alınıb.

# Bolqarıstan müşahidə missiyası prezident seçkiləri ilə bağlı fəaliyyətə başlayıb

Bolqarıstanın Azad və Demokratik Seçkilər Uğrunda Vətəndaş Təşəbbüsünün seçki müşahidə missiyası martın 26-dan Bakıda fəaliyyətə başlayıb. Sechki-2018.az saytının məlumatına görə, missiyanın 4 nəfərlik heyəti QHT rəhbərləri və media təmsilçiləri ilə görüş keçirib.

Görüşdə çıxış edən missiya rəhbərinin müavini Katya Mixaylova bildirib ki, onlar 2003-cü ildən başlayaraq Azərbaycandakı seçkiləri müşahidə edirlər. O qeyd edib ki, məqsəd Azərbaycanda keçirilən seçkilərin qanunlara və ümumi qəbul edilmiş standartlara uyğunluğu ilə bağlı müşahidələr aparmaqdır.

K.Mixaylova əlavə edib ki, ümumi seçki mühitini qiymətləndirmək üçün QHT təmsilçiləri, media nümayəndələri, həmçinin prezidentliyə namizədlərlə müzakirələrin aparılması planlaşdırılıb.

Görüşdə iştirak edən Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev, həmçinin Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, Demokratik Tələbə Gənclər Təşkilatının sədri Asif Əsgərli, Konstitusiya Araşdırmaları Fondunun prezidenti Əliməmməd Nuriyev, digər QHT rəhbərləri Nailə İsmayılova, Vüsalə Hüseynli, Vüqar Bayramlı və başqaları seçki prosesi ilə bağlı ilkin müşahidələri barədə fikirlərini bölüşüblər.

Qeyd edilib ki, missiya martın 29-da aralıq hesabatı təqdim edəcək.

# Gənclər və idman naziri Mingəçevirdə vətəndaşları qəbul edib

Martın 27-də Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov Mingəçevir şəhərindəki Heydər Əliyev Mərkəzində Mingəçevir, Yevlax, Ağdaş, Ağsu, Bərdə, Göyçay, Kürdəmir, Tərtər, Ucar, Zərdab şəhər və rayonlarında yaşayan vətəndaşları qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda ümumilikdə 20-dən çox müraciətə baxılıb. Müraciətlər gənclər, idman və digər sahələri əhatə edib.

Gənclər sahəsi ilə bağlı müraciətlər qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, gənclərlə bağlı müxtəlif layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, yay-qış istirahət düşərgələrinin təşkili, Gənclər mərkəzlərinin müvafiq avadanlıqla təmin edilməsi və fəaliyyəti ilə bağlı olub.

İdman sahəsi üzrə müraciətlər isə fəxri adların verilməsi, idman mərkəzlərinin lazımi avadanlıqla təminatı, yeni olimpiya idman komplekslərinin, idman mərkəzlərinin tikintisi və təmiri, uşaq gənclər və idman mərkəzlərinin və bölmələrin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı və digər məsələləri əhatə edib.

Müraciətdə qaldırılan bir sıra məsələlər yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

# Bakıda “Erməni terroru Azərbaycan multikulturalizminə qarşı: 1918-2018” mövzusunda beynəlxalq konfrans keçirilib



Martın 27-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) “Erməni terroru Azərbaycan multikulturalizminə qarşı: 1918-2018” mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir BBMM tərəfindən “Terror multikulturalizmə qarşı” layihəsi çərçivəsində Azərbaycan Dillər Universiteti ilə birgə reallaşdırılıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov konfransı açaraq erməni terrorizmi və onun ağır fəsadlarından danışıb. Bildirib ki, 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və erməni-daşnak dəstələri azərbaycanlılara qarşı qırğınlar törədiblər. Rəsmi mənbələrə əsasən, soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1998-ci il 26 mart tarixli sərəncamı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur. Prezident İlham Əliyevin 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında sərəncamı faciəyə verilən layiqli qiymətdir.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov erməni terrorizminin təkcə azərbaycanlılar üçün deyil, digər qonşu xalqlar üçün də tarixən ciddi problemlər yaratdığını deyib. Bildirib ki, ermənilər terrordan ən çox istifadə edən xalqlardandır. Elə buna görə də “erməni terroru” ifadəsi siyasi leksikona daxil edilib. Bir çox erməni siyasi partiyaları terroru öz fəaliyyətlərinin əsas metodu kimi qəbul ediblər. Hazırda bu ənənə Ermənistanda qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı törədilən terror aktlarında, digər cinayətlərdə bu gün Ermənistanda siyasi hakimiyyətdə olanlar bilavasitə iştirak ediblər. Müasir dövrdə terror Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılıb. Bütün dünyada terrorçu kimi tanınan ermənilərə heykəl qoyulur, adlarına küçələr verilir. Erməni terroru istər keçmişdə, istərsə də müasir dövrdə sülhə, təhlükəsizliyə böyük təhdiddir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı Musa Qasımlı erməni vəhşiliklərini tarixi faktlarla diqqətə çatdırıb. O deyib ki, mart soyqırımı yalnız azərbaycanlılara deyil, digər xalqlara qarşı da törədilib. Bu soyqırımının coğrafiyası Şərqi Anadolu, İrəvan quberniyası, indiki Azərbaycan ərazisini və digər əraziləri əhatə edir. Erməni təşkilatlarının məqsədi “böyük Ermənistan” yaratmaq olub. Bunun üçün onlar hər cür terrora, vəhşiliklərə əl atıblar. Bu proses bu gün də davam edir.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, işçi qrupun rəhbəri İsmayıl Axundov təmsil etdiyi qurumun erməni terrorizminin araşdırılması ilə bağlı gördüyü işlərdən danışıb. Bildirib ki, o dövrdəki gərgin siyasi vəziyyətdən istifadə edən ermənilər təşkilatlanmış, bölgənin türk-müsəlman əhalisinə qarşı soyqırımı həyata keçirmişlər. Ermənilər 1988-ci ildən etibarən yenidən Azərbaycana qarşı ərazi iddialarına başladılar. Ermənistanın bu siyasəti nəticəsində Azərbaycan torpaqlarının iyirmi faizi işğal edildi, bir milyondan artıq soydaşımız yurd-yuvalarından didərgin düşdü, 20 min insan qətlə yetirildi, 50 min insan əlil oldu, 3875 nəfər isə itkin düşdü.

Konfrans panel müzakirələrlə davam edib.

Azərbaycan Milli Elmlər Akademiyasının Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi Solmaz Rüstəmova-Tohidinin moderatorluğu ilə keçən “1918-1920-ci illərdə azərbaycanlılara qarşı ermənilərin törətdikləri soyqırımı” adlı birinci panel iclasda Fransa Sosial Tarix Araşdırmaları Mərkəzinin nümayəndəsi Georgi Mamulia, Mazandaran Universitetinin siyasi elmlər üzrə doktoru Əhməd Raşidi, Prezidentin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin nümayəndəsi Həcər Verdiyeva, rusiyalı tarixçi, tanınmış qafqazşünas alim Oleq Kuznetsov, Prezident Kitabxanasının şöbə müdiri Nazim Mustafa, İnquşetiya Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri Boris Xarsiyev və BBMM-in müşaviri Aytən Qəhrəman məruzələrlə çıxış ediblər.

Prezidentin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin nümayəndəsi Həcər Verdiyevanın moderatorluğu ilə təşkil edilən “Azərbaycanda yaşayan etnik qruplara qarşı erməni terroru” adlı ikinci panel iclasda isə Moldovanın Effektiv Siyasət İnstitutunun direktor müavini Ruslan Şevçenkonun, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri Firdovsiyyə Əhmədovanın, Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin nümayəndəsi Araz Qurbanovun, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri İmamverdi Həmidovun, “Samur” qəzeti redaktorunun müavini Müzəffər Məlikməmmədovun, Atatürk Universitetinin müəllimi Yavuz Aslanın və AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun sektor müdiri Təvəkkül Əliyevin məruzələri dinlənilib.

Çıxışlarda qeyd edilib ki, 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü tarixə XX əsrin qanlı hadisəsi kimi yazılıb. Bu soyqırımı zamanı erməni silahlı birləşmələri tərəfindən on minlərlə günahsız, dinc insan amansızlıqla qətlə yetirilib. Faciə ilə əlaqədar hər il Azərbaycanda və dünyanın bir çox dövlətlərində soyqırımı ilə əlaqədar müxtəlif anım mərasimləri keçirilir, erməni şovinizminin və qəddarlığının bütün qanlı əməlləri pislənilir.

# Cılız kampaniyanın iştirakçıları həm özlərinə, həm də xalqa və dövlətə xəyanət edirlər

Aydın məsələdir ki, insanın zəhmətindən kənarda onun üçün rahat, arzuladığı həyat yoxdur. Amma təəssüflər olsun ki, zəhmətə qatlaşmadan, üstəlik, çox ağır bir adı boynuna alıb, əvəzində xülyasında olduğu həyata (əgər ona həyat demək mümkündürsə) qovuşmaq istəyənlər də mövcuddur. Harada olmasından asılı olmayaraq, belələri şəxsi maraqları naminə şantaj, qarayaxma və satqınlığa asanlıqla əl atırlar. Ən pisi odur ki, Azərbaycanın çörəyini yeyib ərsəyə gələn və bu gün düşmənlə əlbir olub vətəninə, onu qoruyanlara qarşı bu yolu tutan üzqarası soydaşlarımız da var...

Tarixə nəzər saldıqda hər dövrdə xəyanətkarların adlarına rast gəlmək mümkündür. O da bəllidir ki, beləbləri el deyimində olduğu kimi, həm Əli aşından, həm də Vəli aşından olublar sonda. Azərbaycanın ağır sınaqlardan keçərək müstəqillik qazanıb inkişaf etdiyi, həmçinin torpaqlarının 20 faizinin düşmən tapdağında olduğu bir zamanda niyə onun xəyanətkar vətəndaşları olmalıdır, - deyə bir sual adamı narahat edir. Axı bu insanları nə vadar edir ki, şəxsi maraqlarına görə bu boyda boyunduruğu keçirsinlər boğazlarına?!

Gedib dünyanın o başında oturub sosial şəbəkə üzərində öz “missiyalarını” həyata keçirmək cəhdinin isə heç bir mübarizə formasına uyğun olmadığı tam bəllidir. Ölkəmizin düşmənləri ilə əlbir olub heç nəyə, heç kimə məhəl qoymadan, tapşırıq belədir, deyə Azərbaycan dövlətinə və onun simvollarına, hakimiyyət nümayəndələrinə, cəmiyyət üzvlərinə qarşı qeyri-əxlaqi ifadələr işlədilməsi ancaq və ancaq düşmən qüvvələrinin, antiazərbaycançı şəbəkənin sifarişidir. Bu ünsürlər uyğun zamanı xalqımız üçün son dərəcə vacib ictimai-siyasi hadisə olan prezident seçkiləri ərəfəsində seçiblər ki, Azərbaycanın uğurlarına kölgə salsınlar, normal seçkiyə maneçilik törətsinlər. Ümumiyyətlə, nəticədən asılı olmayaraq düşmən xisləti həmişə belə məqamlarda özünü göstərir. Özü də bu dəfə qarayaxma kampaniyasının xəyanətə söykənən formasını daha “kəsərli” hesab ediblər. Yoxsa bütün mənəvi-əxlaqi baryerləri bu qədər aşmazdılar. Başa düşmürlər ki, qeyri-etik çıxışlar etməklə, əxlaq normalarını aşaraq milli-mənəvi dəyərləri tapdalamaqla heç nəyə nail olmaq olmaz, bu, özlərini məhvə sürükləməkdən başqa bir şey deyil.

Əlbəttə, aydın məsələdir ki, bu ünsürlər öhdəlik icra edirlər, öz “missiyalarını” həyata keçirmək üçün söyüşdən, təhqirdən silah kimi istifadə edirlər. O da məlumdur ki, belə cılız kampaniyaların iştirakçıları, həmçinin qurbanları sonda elə cılız adamların özləri olurlar...

Antiazərbaycançıların tutduğu yol nə qədər mənasız və uğursuz olsa da, beləl追ərinə cavab verməmək də mümkün deyil. Ən azı adama kimliyini, hansı çirkaba əl atdığını başa salmaq, yerini göstərmək lazım gəlir. Bunu elə onların at oynatdığı sosial şəbəkələrdə Azərbaycanın vətənpərvər övladları etdilər, bu gün də edirlər.

Bəzən düşünürsən ki, bəlkə bu zavallıların heç mədəniyyəti, əxlaqı yoxdur, bəlkə heç milli dəyərin, vətənin, dövlətin, onun simvollarının nə olduğunu da anlamırlar! Bu da nəzərə alındı: Azərbaycan dövlətinin rəsmi şəxsləri onları düz yola dəvət etdi, mübarizə aparmağın yolunu göstərərək bildirdilər ki, biz azərbaycanlıyıq, öz adət-ənənəmiz, əxlaq və şərəf ölçülərimiz var. Siyasi mübarizə də həmin çərçivədə, cəmiyyətimizə, vətəndaşlarımıza utanc gətirməyəcək formada, milli-mənəvi və əxlaqi dəyərlərimizə uyğun şəkildə aparılmalıdır. Bu gün öz “siyasi mübarizəsini” söyüş və təhqir üzərində quranlar tutduqları yolun nə onların özlərinə, nə də ki, Azərbaycan cəmiyyətinə heç bir faydası olmadığını anlamalıdırlar. Amma nə faydası, bu yolu seçən adamlar öhdəliklərini icra etməkdən ötrü bütün baryerləri aşmağa hazırdırlar. Daha anlamırlar ki, xəyanətkarın hər yerdə bir adı var və öz dövlətinə vətəndaş ola bilməyənlər heç dünyaya da vətəndaş ola bilməzlər. Əməkdaşlıq etdikləri ermənilərin timsalında son 10 ildə dəfələrlə bunun şahidi olmuşuq.

Maraqlı bir məqam isə odur ki, 3-5 nəfərdən ibarət bu şəxslər sosial şəbəkələrdə etdikləri çıxışlarında, paylaşdıqları yazılarda guya siyasi təzyiqlər üzündən Azərbaycandan getdiklərini deyirlər. Ancaq onların keçmişi ilə maraqlananda məlum olur ki, bu insanların kimliyi, nə işlə məşğul olması haqqında hər hansı bir məlumat yoxdur, bəzilərinin isə adı sadəcə müəyyən oğurluq əməllərində, dələduzluqda səslənir. Elə onlardan üz döndərən yaxınları da bunu dəfələrlə elan ediblər, qohumlarına görə xəcalət çəkdiklərini bildiriblər.

Adam özünü siyasi mühacir hesab edir, amma ölkəsində heç bir siyasi partiyanın üzvü deyil, bir çıxışda, bir mitinqdə, bir fəaliyyət sahəsində adı belə yoxdur. Maraqlı deyilmi? Beləbləri nəinki vətənləri üçün, öz doğmaları üçün də heç bir faydalı iş görməyiblər. Əgər kiçicik oğurluq əməllərini nəzərə almasaq, ümumiyyətlə, bu insanların Azərbaycanda mövcudluğu haqqında adi bir məlumat da yoxdur. Vətəndaş kimi də çox passiv və yararsız olduqları tam aydındır. Belə olduğu halda, hansı məntiqlə bu adamlar siyasi mühacir ola bilər və üstəlik, dövlətin yüksək vəzifəli şəxsləri onların ölkədən çıxarılmasına göstəriş də verə?!

Bu azmış kimi, dağıdıcı müxalifət də həmişəki kimi milli hisslərini itirmiş, erməni təəssübkeşliyi ilə antiazərbaycançı şəbəkənin tapşırığını yerinə yetirən kampaniyaya qoşulub ölkə daxilində çirkin əməllərini davam etdirirlər. Daxildə formalaşan “beşinci kolon”, hələ 1990-cı illərin əvvəllərində Azərbaycanı xaosa sürükləyən dağıdıcı müxalifət qüvvələri, “Milli Şura” adlanan qondarma qurum bu gün Azərbaycanın inkişafını və gündən-günə artan nüfuzunu, sözün həqiqi mənasında, həzm edə bilmirlər. Odur ki, fürsət düşən kimi, onlar da özünəməxsus şəkildə qarayaxma kampaniyaların iştirakçısına və icraçısına çevrilirlər.

Bütün bunlara baxmayaraq, möhkəm təməl üzərində qurulan müasir Azərbaycan dövlətini, onun inkişafını və uğurlu gələcəyini heç bir kampaniya, heç bir qara qüvvə şübhə altına ala bilməz. İstər xaricdə, istərsə də daxildəki düşmənlər və ya antiazərbaycançı qüvvələr özləri də çox gözəl anlayırlar ki, onları Azərbaycan xalqı tanıyır və sonda rəzil vəziyyətinə qalan da özləri olacaqlar...

***Elnur HADIYEV,***
***“Azərbaycan”***




# Mart soyqırımına gedən yol...

Soyqırımı bir millətin faciəsi deyil, bütün insani dəyərlərin ayaq altına atıldığı fəlakətdir. Buna görə hər bir millət, hər bir fərd, hətta onu öz milləti törətmiş olsa belə, soyqrımlara qarşı çıxmalıdır. Ancaq tarix göstərir ki, erməni millətçiləri öz qəddar ata-babalarının əməllərindən utanmaq əvəzinə onlardan “dərs alır”, hər fürsətdə azərbaycanlılara qarşı yeni vəhşiliklər törətməkdən çəkinmirlər...

Əslində ermənilərlə qonşu olduğumuza görə nə iqtisadi məkanı, nə də taleyimizi qınamalıyıq. Çünki bu qonşuluğu yaradan başqa səbəblər və səbəbkarlar olub. Azərbaycanın erməni bəlası, azərbaycanlılara qarşı törədilən soyqırımlarının bünövrəsi XVIII əsrdən - I Pyotr dövründən qoyulub. O zamandan çarizmin münbit torpaqları, dənizləri ələ keçirmək siyasəti ölkəmiz, millətimiz üçün böyük faciələr yaratdı. 1721-ci ildə Qafqaza yürüş edən, iki il sonra Bakı da daxil olmaqla Azərbaycanın Xəzəryanı ərazilərini işğala məruz qoyan I Pyotrun qoşunları yerli əhalinin müqaviməti ilə qarşılaşdı. Çar siyasət işlədərək Azərbaycanın tarixi torpaqlarında, xüsusilə Bakı və Dərbənddə ermənilərin məskunlaşdırılması göstərişini verdi: “Onları (erməniləri) tovlayıb bizim torpaqlara gətirməyə çalışmaq lazımdır ki, Rusiyanın istinadgahı olsun”.

XIX əsrin birinci yarısında Rusiya ilə İran arasında olan iki müharibənin - 1804-1813-cü illərdə və 1826-1828-ci illərdə baş verən müharibələrin ən böyük ağrısını azərbaycanlılar çəkdi. Həmin müharibələrin sonunda imzaladıqları müqavilələrlə (12 oktyabr 1813-cü ildə Gülüstan və 10 fevral 1828-ci ildə Türkmənçay) Azərbaycanın torpaqlarını ikiyə böldülər, ölkənin şimalına Rusiya, cənubuna İran sahib çıxdı. Ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsinə başlanıldı. Onlar İrəvan, Dağlıq Qarabağ, Naxçıvan, Zəngəzur, Dərələyəz, Ordubad, Vedibasar və digər qədim Azərbaycan torpaqlarında yerləşdirilirdi. Amma bununla da həmin ərazilərdə ermənilərin sayca azərbaycanlıları üstələməsinə nail ola bilmədilər. 1886-cı ildə elə təkcə Gəncə quberniyasının Zəngəzur qəzasındakı 326 kənddən yalnız 81-i erməni kəndi idi. İrəvan qəzasında əhalinin 66 faizini azərbaycanlılar, 34 faizini ermənilər təşkil edirdi.

Müstəmləkəsinə çevirdiyi Şimali Azərbaycanın ərazilərinə sistemli şəkildə digər xalqları köçürən çarizmin bu məsələdə ermənilərə “üstünlük” verməsinin səbəbi I Pyotrun dövründən başlayaraq həyata keçirilən planlar, düşüncələr idi. I Pyotrun tarixi vəsiyyətinə istər çar, istərsə də bolşevik Rusiyası böyük əhəmiyyət verdi. Ermənilərin isə bu siyasətdə öz maraqları var idi. Rusiya imperiyası Cənubi Qafqazda möhkəmlənmək, ermənilər isə onun köməyi ilə ələ keçirəcəyi tarixi Azərbaycan torpaqlarında yoxdan böyük bir erməni dövləti yaratmaq niyyətində idilər.

Şərq xalqları içərisində yaşamış, onların dilini, adət-ənənələrini, psixologiyasını yaxşı bilən ermənilərin çar hakimiyyətini qane edən bir xüsusiyyətləri də şəraitə tez uyğunlaşmaq bacarıqları idi. 1828-ci ildən çar Rusiyasının sayəsində torpaqlarımıza ayaq açan ermənilər əvvəlcə özlərinə sığınacaq tapdılar, yerləşdilər. Zaman keçdikcə iddiaları artmağa başladı. Bu işdə yenə ən böyük yardımı öz himayədarlarından alırdılar. Çarizmin bu “xeyirxahlığının” əvəzini ermənilər canbaşla verirdilər. XX əsrin əvvəllərindən azərbaycanlılara qarşı törədilən qətliamlara bu məkrli niyyətlər səbəb oldu. Zaman-zaman ictimai-siyasi vəziyyətin gərginləşdiyini, imperiyanın ucsuz-bucaqsız ərazilərində iğtişaşların, inqilabi hərəkatın yüksəldiyini, yerli xalqların azadlıq duyğularının gücləndiyini, öz hakimiyyətinə qarşı təhlükə yarandığını görən çar Rusiyası milli münaqişələrə rəvac verdi.

XX əsrin ilk illərində Rusiyada baş verən iki mühüm hadisə imperiyanın istilası altında yaşayan xalqların tarixində xüsusilə böyük rol oynadı. 1904-cü ilin dekabrında Rus-yapon müharibəsində yaşanan Port-Artur məğlubiyyəti Romanovlar sülaləsinin hakimiyyətinə ciddi zərbə vurdu. Bunun ardınca Qanlı Bazar günü adı ilə tarixə düşən faciə - 1905-ci ilin 9 yanvarında dinc nümayişçilərin hökumət qüvvələri tərəfindən atəşə tutulması siyasi hadisələrin daha da kəskinləşməsinə, inqilabi hərəkatın genişlənməsinə gətirib çıxardı. Çarizm məhvə sürüklənirdi. Belə çətin vaxtlarda hakimiyyət imperiyanı qoruyub saxlamaq üçün bütün vasitələrə əl atırdı. 1905-ci ilin əvvəllərindən hakimiyyət etirazçılara qarşı sərt tədbirləri gücləndirdi. İmperiyanın ucqarlarında milli oyanışın, milli özünüdərkin azadlıq istəyi ilə nəticələnəcəyindən təşvişə düşən çarizm çaxnaşmalar yaratmaqla əhalini əsas məqsədindən uzaqlaşdırmağa çalışır, bunun üçün millətlər arasında qarşıdurma yaradır, milli münaqişələri alovlandırırdı.

Hələ XIX əsrin sonlarından çarizmin himayəsi altında olan ermənilərin siyasi təşkilatları, ideologiyaları yaranırdı. Yeni erməni millətçiləri yerli xalqlara qarşı uzunmüddətli, kütləvi qırğınlar törətməyə həm maddi, həm də psixoloji cəhətdən hazırlanırdılar. Ermənilərin hərbi dəstələri toplanır, çar Rusiyası tərəfindən gizli silahlandırılırdı. 1905-ci ildə - çar Rusiyasında böhranın dərinləşdiyi vaxtda erməni silahlı dəstələri hərəkətə keçdi. 1905-1907-ci illərdə yerli əhaliyə qarşı genişmiqyaslı soyqırımı aktını həyata keçirmək üçün ermənilər lazım olan gücü, silah-sursatı çar Rusiyasından almışdılar. Azərbaycanın Zəngəzur, İrəvan, Naxçıvan, Ordubad, Qazax, Qarabağ əyalətlərində yüzlərlə kənd yandırıldı, uşaqdan böyüyədək kimsəyə aman verilmədi. Həmin illərdə İrəvan və Gəncə quberniyalarının 200, Şuşa, Cəbrayıl və Zəngəzurun 75 azərbaycanlı kəndi ermənilər tərəfindən talan edildi. 1907-ci ildən sonra isə azərbaycanlılara qarşı repressiyalar gizli şəkildə aparıldı.

XX əsrin ikinci onilliyində Rusiyanın daxilində ictimai-siyasi ziddiyyətlər daha da kəskinləşdi, tətillər, mitinqlər imperiyanı bürüdü. Çarizmin müstəmləkəsində yaşayan millətlərin haqq səsləri yenidən ucaldı. Azərbaycanda da milli özünüdərk hissi güclənirdi. Bunun qarşısını almaq üçün məkrli siyasətin yeni səhifələri yazılır, ermənilərin azərbaycanlılara qarşı hücum planları qurulurdu.

1914-cü ildə Birinci Dünya müharibəsi başladı. Ermənilər yenə qarışıqlıqdan öz xeyirləri üçün istifadə etməyə çalışdılar. 1890-cı ildə yaradılmış və bu müddət ərzində maddi cəhətdən möhkəmləndirilmiş, yaxşı təşkilatlandırılmış “Daşnaksütyun” partiyası yerli türk-müsəlman əhalini məhv edərək Aralıq dənizindən Qara dənizə, Qara dənizdən Xəzər dənizinədək olan bölgədə Ermənistan adlı dövlət qurmaq xülyasında idi. Əvvəlcə Osmanlı ərazisi hədəf seçildi. Birinci Dünya müharibəsində ermənilər həmin əraziyə daxil olan rus ordusu ilə birləşərək on minlərlə silahsız insanı qətlə yetirdilər. Türk ordusu bütün gücünü toplayaraq rus ordusunun hücumlarının qarşısını ala bildi. Osmanlı ərazisində xəyallarını gerçəkləşdirə bilməyən erməni daşnak qüvvələri rus ordusu ilə birlikdə geri çəkildilər və qədim Azərbaycan torpaqlarına üz tutdular...

Birinci Dünya müharibəsi başlayandan çarizm erməni silahlı dəstələrinin hazırlanmasını daha sistemli şəkildə həyata keçirirdi. 1917-ci ildə Qafqaz cəbhəsi dağılandan və rus ordusu geri çəkiləndən sonra hərbi hissələr öz silahlarını erməni dəstələrinə verdilər. Qafqaz cəbhəsindən geri qayıdan rus əsgərləri də vətənlərinə getmək əvəzinə Bakıda saxlanıldı. Bu məsələdə Şaumyan xüsusi fəallıq göstərirdi. Bolşevik-daşnak qüvvələrinin birləşdiyi Bakı Sovetinin ixtiyarında Qırmızı ordu adı altında əksəriyyəti ermənilərdən ibarət olan 20 minlik silahlı qüvvə toplandı.

O vaxtlar üç yüz illik Romanovlar sülaləsinin hakimiyyəti artıq süquta uğramışdı. Belə ki, 1917-ci ilin Fevral burjua-demokratik inqilabı nəticəsində çarizmin hökmranlığına son qoyulmuş, həmin ilin oktyabrında isə V.İ.Lenin başda olmaqla bolşeviklər hakimiyyəti zorla ələ keçirmiş, fəhlə-kəndli hökuməti qurmaq adı altında əvvəlki imperiyanı bərpa etmişdilər.

1900-cü ildən Kommunist Partiyasının üzvü olan Stepan Şaumyan türklərə nifrət bəsləyən erməni millətçisi idi. 1917-ci ilin dekabrında Rusiya Xalq Komissarları Sovetinin sədri V.İ.Lenin tərəfindən Qafqazın fövqəladə komissarı təyin olunan S.Şaumyanın Korqanovun başçılıq etdiyi Hərbi İnqilab Komitəsi ilə birlikdə Tiflisdən Bakıya gəlişi buradakı siyasi vəziyyəti xeyli gərginləşdirdi. Onun başçılıq etdiyi bolşeviklərdən ibarət Bakı Soveti Bakı quberniyasında hakimiyyəti ələ keçirdi. Dekabrın 16-da S.Şaumyan V.İ.Leninin əmri ilə Qafqazda fövqəladə və səlahiyyətli komissar təyin olundu. Bununla da bolşeviklər Bakıda hakimiyyəti ələ almaq adı ilə erməni silahlı qüvvələrinə məkrli niyyətlərini həyata keçirməyə meydan verdilər.

1917-ci ilin sonu, 1918-ci ilin əvvəllərində Bakıda daşnak-bolşevik birləşmələrinin milli qüvvələrə qarşı açıq mübarizəsi daha geniş vüsət aldı. Şaumyan başda olmaqla Bakı Soveti daşnak qüvvələri ilə birgə hərəkət edirdi. Daşnaklarla bolşeviklərin ittifaqına erməni kilsəsi yardım göstərir, erməni ziyalıları yaxından iştirak edirdilər.

S.Şaumyan hələ 1918-ci ilin yanvarında azərbaycanlılara qarşı qırğın törətməyə cəhd göstərdi. Şəmkir ətrafında müqavimət göstərən milli-demokratik qüvvələrə güc tətbiq edildi. Bakıdakı milli-demokratik qüvvələrə qarşı soyqırımı törətməyə səy göstərildi. Amma qüvvələrinin buna yetmədiyini görüb Şaumyan planını təxirə saldı.

Özünəməxsus ərazisi, paytaxtı olmayan ermənilər artıq İrəvan quberniyasında, Zəngəzurda və Qarabağın bir hissəsində azərbaycanlılara qarşı dəhşətli qətliamlara başlamışdılar. 1918-ci ilin martınadək təkcə İrəvan quberniyasının 199 kəndi tamamilə yandırılmış, dağıdılmış və boşaldılmışdı. Həmin ərazidə yaşayan 135 min azərbaycanlının bir hissəsi ermənilər tərəfindən qətlə yetirilmiş, qalanları yurdundan qaçmaq məcburiyyətində qalmışdı.



1918-ci ilin martında Bakıda siyasi vəziyyət son dərəcə gərgin idi. Bakı Sovetinə keçirilən seçkilərdə “Müsavat”ın böyük hissəsinin səs çoxluğu ilə qələbə qazanması bolşevikləri və daşnakları ciddi narahat edirdi. Şaumyan başda olmaqla bolşevik qüvvələri, Erməni Milli Şurası və “Daşnaksütyun” rəhbərləri növbəti qətliamlara hazır idilər. Bakıda Azərbaycan milli qüvvələrinin sayca az olduğunu, zəif silahlandıqlarını yaxşı bilən Şaumyan məkrli planlarının həyata keçirilməsi üçün daha əlverişli şəraitin yaranmasını gözləyirdi.

1918-ci ilin 3 martında bağlanan Brest-Litovsk sülh müqaviləsi Rusiyanı qoşunlarını işğal etdiyi Qars, Ərdəhan və Batumdan çıxarmağa məcbur etdi. Türkiyə dövləti bu vilayətlərin boşaldılmasını tələb etdi. İran və Türkiyə cəbhəsindən geri dönən yaxşı silahlanmış rus və erməni əsgərlərinin bir hissəsi Bakıda yerləşdirildi. Şaumyan həmin qüvvələrdən də azərbaycanlılara qarşı istifadə etməyi planlaşdırdı. Daşnakların yaratdığı Erməni Milli Şurası həmin vaxt kifayət qədər böyük siyasi gücə malik idi. Onlar da məqsədlərinə çatmaq üçün Bakıda bolşeviklərlə birləşdilər. Şaumyan bütün qüvvələri səfərbər edərək hələ də fürsət gözləyirdi...

O zaman Azərbaycanın iki bölgəsində - Gəncədə və Lənkəranda Milli Ordunun formalaşdırılması ilə bağlı işlərə başlanılmışdı. Böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmməd Tağıyev də Lənkəranda Milli Ordu sıralarında xidmət edirdi. O, 1918-ci ilin martında həlak oldu. Məhəmməd bəyin dəfn mərasimi martın 27-nə təyin edildi. Mərasimdə iştirak etmək üçün general Talışinskinin başçılıq etdiyi Azərbaycan alayı Bakıya gəlməli idi. Şaumyan dərhal hadisə ilə bağlı Leninə məlumat verdi və çox keçmədi ki, ondan teleqram aldı. Teleqramda bildirilirdi: “Hörmətlı yoldaş Şaumyan! Məktubunuz üçün təşəkkür edirəm. Sizin düşünülmüş siyasətiniz bizə çox xoşdur və yaranmış vəziyyətdə siyasətinizin daha dərin və ehtiyatlı diplomatiya ilə birgə tətbiq edilməsini məqsədəuyğun sayır və nəticədə qələbə çalacağımıza əminik. Çətinliklər gözlənilməzdir və indiyədək biz yalnız imperialistlər arasında narazılıqlar və münaqişələr nəticəsində irəli getmişik. Bu konfliktləri işlətməyi öyrənin, hal-hazırda diplomatiya öyrənmək vacibdir.

Bütün dostlara xoş arzular və salamlar. V.Ulyanov (Lenin)”.

Teleqramın Bakıya yetişməsindən bir neçə gün sonra - martın 27-də Məhəmməd Tağıyevin cənazəsini 48 əsgər və zabit “Evelina” gəmisində Lənkərandan Bakıya gətirdi. Gözlədiyi məqamın çatdığını düşünən S.Şaumyan başçılıq etdiyi ermənilərin köməyi ilə təxribatlara başladı. Dəfn mərasimindən sonra əsgər və zabitlər gəldikləri gəmi ilə geri qayıtmalı idilər. Gəminin körpüdən aralanmasına az qalmış silahlı bolşeviklər dəstənin tərksilah olunmasını tələb etdilər. Şaumyanın göstərişi ilə Milli Ordunun əsgər və zabitlərinin silahları alındı və həbs olundular. Azərbaycan əhalisinin buna etiraz əlaməti olaraq küçələrə çıxacağına Şaumyan əmin idi. Gözlədiyi kimi də oldu. 1918-ci il martın 29-da şəxsi heyəti müsəlmanlardan ibarət olan “Evelina” gəmisinin Bakıda bolşevik qüvvələri tərəfindən tərksilah edilməsi milli qırğına başlamaq üçün bəhanə oldu. Bir tərəfdə silahsız azərbaycanlılar, digər tərəfdə hər cür silahla təchiz olunmuş böyük ordu üz-üzə gəldi. 1918-ci il martın 30-da erməni kilsəsi yanında toplaşan daşnak dəstəsi azərbaycanlılara ilk atəşi açdı.

...31 mart səhəri qanla açıldı. Bolşevik-daşnak dəstələri azərbaycanlıların sıx yaşadığı Kərpicxana, Məmmədli və başqa məhəllələrə hücuma keçdilər. Həmin məhəllələri havadan təyyarələr, dənizdən isə hərbi gəmilər də bombalamağa başladı. Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Y.Kluge komissiyanın sədrinə o günü belə təsvir edəcəkdi: “Yaxşı silahlanmış və təlim keçmiş erməni əsgərləri çoxlu miqdarda pulemyotların müşayiəti ilə hücum edirdilər... Ermənilər müsəlmanların evlərinə soxulur, evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram-doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin südəmər körpələrinə rəhm etmir, hamısını qırırdılar”. Dərdli Bakı 1918-ci ilin 31 martında tarixinin ən faciəli səhifələrini yaşayırdı...

***Zöhrə FƏRƏCQIZI,***
***“Azərbaycan”***

# Ermənistanın Azərbaycana məxsus maddi-mədəni irsinin məhv edilməsi siyasəti ümumbəşəri sivilizasiyaya qarşı vəhşilikdir

Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüz siyasətinin tərkib hissəsi kimi işğal olunmuş ərazilərimizdə maddi-mədəniyyət abidələrinin və dini abidələrin dağıdılması, talan edilməsi, mənimsənilməsi, mənşəyi və təyinatının dəyişdirilməsi kimi sistematik vandalizm siyasəti yürüdülür. Ermənistanın işğal olunmuş ərazilərimizdə və tarixi Azərbaycan torpaqları olan Ermənistan ərazisində Azərbaycan xalqına məxsus maddi-mədəni irsin məhv edilməsi siyasəti yalnız Azərbaycan xalqına qarşı deyil, ümumbəşəri sivilizasiyaya qarşı vəhşilikdir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Ermənistan Xarici İşlər Nazirliyinin nümayəndəsinin açıqlamasına cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev qeyd edib ki, Ermənistan Xarici İşlər Nazirliyinin nümayəndəsi mətbuata verdiyi açıqlamasında dolayı yolla özü bunu etiraf edir, işğalçı dövlət kimi Ermənistanın daşıdığı beynəlxalq məsuliyyəti gizlətməyə çalışır. Buna baxmayaraq, işğal olunmuş ərazilərimizdə Azərbaycan xalqına məxsus maddi-mədəniyyət abidələrinin Ermənistan tərəfindən dağıdılması, talan və məhv edilməsi halları dəqiqliklə müəyyən olunub.

Beləliklə, işğal olunmuş ərazilərimizdə Ermənistan tərəfindən 738 tarixi abidə, 83500-dən çox eksponata malik 28 muzey, 4 şəkil qalereyası, 14 xatirə kompleksi və 1107 mədəniyyət müəssisəsi daxil olmaqla, 1891 maddi-mədəniyyət resursu talan edilib və vandalizm obyektinə çevrilib. Cəbrayıl rayonunda XVII əsrə aid məscid kompleksi, Şuşa şəhərində XVIII əsrə aid Yuxarı və Aşağı Gövhərağa və Saatlı məscidləri, XIX əsrə aid Ağdam məscidi nəinki dağıdılıb və talan edilib, donuz və mal-qara yerləşdirməklə tövlə edilib və təhqir obyektinə çevrilib. Həmçinin Şuşa şəhərində Vaqifin Mavzoleyi, Natəvanın evi, karvansara kimi arxeoloji abidələr dağıdılıb və talan edilib.

İşğal olunmuş Xocalı, Kəlbəcər, Laçın, Xocavənd və digər rayonlarda yerləşən və erməni kilsəsinə heç bir aidiyyəti olmayan tarixi alban xristian kilsələrinin mülkiyyəti mənimsənilib, arxitektura xüsusiyyətləri dəyişdirilərək erməni kilsə abidələri kimi təqdim edilir. Kəlbəcər rayonu ərazisində yerləşən orta əsrlərə aid Gəncəsar və Xudavəng alban xristian kilsələri xüsusilə qeyd edilməlidir. 2003-cü ildən etibarən Azıx mağarasında və Ağdam ətrafında qeyri-qanuni arxeoloji qazıntılar aparılır.

Ermənistan ərazisində tarixi Azərbaycan torpaqlarında Azərbaycan xalqına məxsus mədəni irs də eyni aqibəti yaşayır. Yerevandakı Dəmirbulaq məscidi yer üzündən silinib, Göy məscid isə orijinal xüsusiyyətlərinin dəyişdirilməsi məqsədilə “yenidən təmir edilib”. Dağıdılmış arxitektura abidələri arasında XVIII əsrin ikinci yarısında Qara Seyid tərəfindən İrəvanda tikilmiş Hacı Novruzəli bəy məscidi, “Sərdar sarayı” və ya “Xan sarayı” adlı saraylar kompleksi də var. Yerevandakı Sərdar məscidi də sistemli dağıntıya məruz qalıb və 2014-cü ildə tamamilə məhv edilib.

Mədəniyyət və Turizm Nazirliyi və Xarici İşlər Nazirliyi tərəfindən “Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində İslam dininə aid tarixi və mədəni irsin məhv edilməsi” və “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı davam edən təcavüzü nəticəsində Azərbaycanın tarixi və mədəni irsinin dağıdılması və təhqir olunması” adlı müfəssəl hesabatlar hazırlanaraq UNESCO başda olmaqla, BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, ISESCO-ya, digər beynəlxalq təşkilatlara təqdim olunub.

Görülən işlərin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı tərəfindən Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan ərazilərində İslam dininə aid tarixi və mədəni irsin və məbədlərin dağıdılması və təhqir edilməsi barədə mütəmadi əsasda qətnamələr qəbul edilir. Sonuncu belə qətnamələr 2015-ci, 2016-cı və 2017-ci illərdə Küveyt, Özbəkistan və Kot d`İvuarda keçirilmiş İƏT Xarici İşlər Nazirləri Şurasında qəbul olunub.

Xarici İşlər Nazirliyi və Mədəniyyət və Turizm Nazirliyi işğal olunmuş ərazilərimizdəki maddi-mədəniyyət abidələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi üzrə faktaraşdırıcı missiyanın təşkil olunması məsələsini beynəlxalq səviyyədə dəfələrlə qaldırıb. Maddi-mədəniyyət abidələrinə qarşı törətdiyi vəhşiliklərə görə daşıdığı məsuliyyəti dərk edən Ermənistan hər bir vəchlə buna imkan vermir. Xarici işlər naziri Elmar Məmmədyarov bu ilin yanvar ayında UNESCO-nun baş katibi Odre Azule ilə təşkilatın mənzil-qərargahında görüşü zamanı UNESCO-nun işğal olunmuş ərazilərimizə faktaraşdırıcı missiya göndərməsi məsələsini bir daha qaldırıb.

Ermənistanın bu kimi əməlləri 1954-cü il Haaqa və ya “Silahlı münaqişələr zamanı mədəni abidələrin qorunmasına dair Konvensiya” və həmin konvensiyanın 1999-cu ildə qəbul edilmiş İkinci Protokolu üzrə üzərinə götürdüyü öhdəliklərinin kobud şəkildə pozulmasıdır. İkinci Protokolun 9-cu bəndi işğalçı tərəfin “işğal edilmiş ərazilərə münasibətdə” mədəni mülkiyyətin, istənilən arxeoloji qazıntı nümunəsinin qanunsuz ticarəti, bu ərazilərdən çıxarılması, abidələrin mədəni, tarixi və ya elmi sübut xüsusiyyətinin dəyişdirilməsi və ya dağıdılmasının qadağan edilməsi və qarşısının alınması kimi öhdəliyini təsbit edir.

Silahlı münaqişələr zamanı mədəni mülkiyyət və mədəni irsə qarşı qanunazidd əməllər beynəlxalq cinayət hüququ ilə hərbi cinayət hesab olunur. Ermənistan Respublikası dövlət olaraq işğal olunmuş ərazilərimizdə maddi-mədəniyyət abidələrinə qarşı törətdiyi vandalizm əməllərinə görə birbaşa beynəlxalq hüquqi məsuliyyət daşıyır.

Xarici İşlər Nazirliyi və Mədəniyyət və Turizm Nazirliyi birgə səylərlə Ermənistanın işğal olunmuş ərazilərimizdə, o cümlədən Ermənistan ərazisində Azərbaycan xalqına məxsus tarixi maddi-mədəni irsə qarşı vandalizm əməllərini beynəlxalq səviyyədə təqdim etməkdə davam edəcək.

# Niderlandda 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı yürüş təşkil edilib




Niderland Krallığının Rotterdam şəhərində Avropa Azərbaycanlıları Konqresinin (AAK) və Benilüks Azərbaycanlıları Konqresinin (BAK) təşkilatçılığı ilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş “Səssiz yürüş” aksiyası keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, aksiya iştirakçıları təkcə erməni terrorçularına yox, eyni zamanda, onlara dəstək verən bəzi Avropa dövlətlərinə də etirazlarını bildiriblər. Onlar həmçinin Niderland parlamentinin alt palatasında qondarma “erməni soyqırımı” ilə bağlı sənədin qəbul edilməsinə qəti etirazlarını bildirərək bundan sonra da hər zaman Türkiyənin yanında olacaqlarını deyiblər.

Aksiyaya Niderland Krallığında fəaliyyət göstərən türk, Latviya, Litva, Estoniya, İraq türkmənlərinin diaspor təşkilatları da yaxından dəstək verib. BAK-ın birinci vitse-prezidenti, Azərbaycan-Hollandiya Həmrəylik Cəmiyyətinin sədri Elsevər Məmmədov bildirib ki, erməni terrorçularının azərbaycanlılara qarşı törətdikləri soyqırımının 100 illiyi ilə əlaqədar Benilüks ölkələrində də silsilə tədbirlər təşkil olunacaq. Bu istiqamətdə AAK və BAK Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycanın Niderlandda və Belçikada fəaliyyət göstərən diplomatik korpusları ilə birgə fəaliyyət göstərir.

# Beyləqan Olimpiya İdman Kompleksinin təməli qoyulub

Martın 27-də Beyləqanda olimpiya idman kompleksinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, təməlqoyma mərasimində gənclər və idman naziri Azad Rəhimov, rayon icra hakimiyyətinin başçısı Vaqif Abdullayev, Milli Məclisin deputatı Şahin İsmayılov və digər rəsmi şəxslər iştirak ediblər.

Nazir Azad Rəhimov çıxışında bildirib ki, hazırda ölkəmizdə 43 olimpiya idman kompleksi fəaliyyət göstərir. Bir müddət bundan əvvəl Tərtərdə sayca 44-cü olimpiya idman kompleksinin təməli qoyulub. Həmçinin Goranboy və Neftçala rayonlarında olimpiya idman kompleksləri tikilir. Yardımlı rayonunda da idman kompleksinin inşası davam etdirilir. Bu il isə Lənkəran Olimpiya İdman Kompleksinin istifadəyə verilməsi planlaşdırılır.

Beyləqan Olimpiya İdman Kompleksinin tikintisi Azərbaycan Prezidenti İlham Əliyevin 2014-cü il 27 fevral tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulub. Prezident İlham Əliyevin Beyləqan rayonunda olimpiya idman kompleksinin tikintisi ilə bağlı əlavə tədbirlər haqqında 2018-ci il 23 mart tarixli sərəncamı ilə vəsait ayrılıb. Kompleks Beyləqan Rayon İcra Hakimiyyəti tərəfindən şəhər stadionunun ərazisində ayrılmış 2,61 hektar torpaq sahəsində tikilir. Beyləqan Olimpiya İdman Kompleksində 1000-ə yaxın tamaşaçı tribunası olan, müxtəlif idman növləri üzrə məşqlərin və yarışların keçirilməsi üçün nəzərdə tutulan universal idman zalı, güləş, boks, qrup məşqləri və trenajor zalları, 180 tamaşaçı tribunası və 24x12 ölçüdə üzgüçülük hovuzu olan zal inşa olunacaq. Bundan əlavə, sayca 45-ci olan kompleksdə 18 standart, 2 VİP otaq olmaqla, 40-50 nəfərlik mehmanxana, restoran, mətbəx, internet klub, konfrans zalı, sauna, masaj, həkim, məşqçilər üçün otaqlar və inzibati otaqlar yaradılacaq. Hər bir idman zalı üçün ayrı-ayrılıqda soyunub-geyinmə, sanitar qovşaq və duş otaqları nəzərdə tutulub. Fiziki imkanları məhdud olan tamaşaçıların və idmançıların kompleksdən tam və təhlükəsiz istifadə etmələri üçün bütün zəruri şəraitin yaradılması planlaşdırılıb.

Beyləqan Olimpiya İdman Kompleksinin baş planına əsasən ərazidə 1250 nəfərlik tamaşaçı tribunası olan futbol stadionu, süni örtüklü qaçış zolağı, minifutbol meydançası, həmçinin enerji təchizatını təmin etmək üçün transformator yarımstansiyası, generator məntəqəsi, istilik qazanxanası və nasosxana binası, içməli və yanğına qarşı ehtiyat su anbarları da inşa ediləcək.

# BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycanın da təmsil olunduğu təşəbbüs qrupunun irəli sürdüyü qətnamə qəbul edilib

BMT-nin İnsan Hüquqları Şurasının Cenevrədə keçirilmiş 37-ci sessiyası çərçivəsində Azərbaycanın Braziliya, Çili, Danimarka, Ekvador, Fici, Kanada, Lüksemburq, Portuqaliya, Ruanda, Syerra Leone, Tailand və Uruqvay ilə birgə irəli sürdüyü daha bir sənəd - "İnsan hüquqlarının təşviqi və müdafiəsi və Dayanıqlı İnkişaf Məqsədlərinin yerinə yetirilməsi" adlı qətnamə şuranın üzvləri tərəfindən yekdilliklə qəbul edilib. Qətnaməyə 69 ölkə həmmüəllif qismində qoşulub.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qətnamənin əsas məqsədi insan hüquqlarının təşviqi və müdafiəsi ilə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin yerinə yetirilməsi arasında mövcud olan qarşılıqlı əlaqələrin vurğulanması və BMT-nin üzv ölkələrinin bu sahədə əldə etdikləri müsbət təcrübələri bölüşmələri üçün müvafiq platformanın yaradılması olub. Bu xüsusda qətnaməyə əsasən 2018-ci və 2019-cu illərdə Cenevrədə BMT-nin üzv ölkələrinin illik görüşlərinin təşkil edilməsi planlaşdırılır. Sözügedən görüşlərin nəticələri barədə Cenevrədə yerləşən BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən hazırlanacaq hesabatların İnsan Hüquqları Şurasına və Nyu Yorkda hər il keçirilən Dayanıqlı İnkişaf Məqsədlərinin icrası üzrə Yüksək Səviyyəli Siyasi Foruma təqdim edilməsi nəzərdə tutulur.

BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycanın və yuxarıda adları sadalanan ölkələrin birgə səyləri nəticəsində qeyd edilən qətnamənin qəbulu Azərbaycanın beynəlxalq səviyyədə artan nüfuzunun, eləcə də milli səviyyədə Dayanıqlı İnkişaf Məqsədlərinə və insan hüquqlarının müdafiəsinin təmin edilməsi üzrə zəngin təcrübəyə malik ölkə kimi qəbul edilməsinin əyani göstəricisidir.

# Bakıda tanınmış rəssamlar Aida Mahmudova və Mikelancelo Pistolettonun sərgisi açılıb









Martın 27-də "YARAT" Müasir İncəsənət Mərkəzində tanınmış azərbaycanlı rəssam Aida Mahmudova və italiyalı fırça ustası Mikelancelo Pistolettonun seçilmiş əsərlərindən ibarət sərgi açılıb.

AZƏRTAC xəbər verir ki, "YARAT" Müasir İncəsənət Mərkəzində "Təsəvvür edilməyən perspektivlər" və "Et bunu" adlı sərgi haqqında məlumat verən kurator Suada Qarayeva-Maleki belə bir işin ərsəyə gəlməsini yüksək qiymətləndirib.

Qeyd olunub ki, rəssam Aida Mahmudova yeni yaradıcılığında, "eksperiment üçün alət" qismində müxtəlif materialları araşdırır. Kağız, gil, sement, daş və ilk dəfə olaraq məhz bu sərgi üçün mərmər kimi müxtəlif materialları qarışdırmaq, dağıtmaq, yenidən yaratmaq, müxtəlif laylar qurmaq və onları bir-birindən ayırmaq prosesi rəssam üçün materialın "inkişafı", habelə "emosional müalicə" baxımından müəyyən mənada məşğələ rolunu oynayır. Aida Mahmudova sərgi məkanının üst mərtəbəsi boyunca büsbütün yeni yaradıcılıq konsepsiyasını ərsəyə gətirib. Dağılan sütunları xatırladan heykəllər və monumental divar əsərlərinin yer aldığı ümumi instalyasiya, yarımdağılı və yarımtikili, digər sözlə, "keçid mərhələsində" olan məkan hissini oyadır və yaradıcılığın əhəmiyyətli mərhələsi kimi entropiyanın (xaotiklik dərəcəsi) vacibliyini vurğulayır. Bu proses rəssam üçün "hər şey" deməkdir və rəssamın orijinal fakturalı əsərləri, onun şəxsi zaman-məkan kontinuumunda əlahiddə məqamları açıqlayan hər bir lay, yaddaş əlamətləri qismində çıxış edir.

Bildirilib ki, öz erkən peyzaj və yarımabstrakt əsərlərində Aida Mahmudova işıq, rəng və materiya ilə eksperimentlər aparmaqla "özünü ifadə edən" materiallara qarşı müəyyən maraq oyatmağa müvəffəq olub. Rəssamın əsərlərində getgedə daha çox qatlara rast gəlinir ki, bu da onun öz təcrübəsini üçölçülü sənət səviyyəsinə qədər genişləndirməsindən xəbər verir. Rəssam eyni yanaşmanı heykəltəraşlıq əsərlərinə də tətbiq etməklə həm emosional, həm də dolğun mühitlər yaradır. Rəssamın dərin və intuitiv araşdırmaları seçdiyi materiallar və üstünlük verdiyi prozaik kətanın fiziki xüsusiyyətləri ilə harmoniya təşkil etməklə, sevgi, itki, yaddaş və arzu kimi universal insan hislərinin geniş spektri ətrafında cərəyan edir. Aida Mahmudovanın öz dili ilə desək, "son dərəcə zərif olan bu yaradıcılıq prosesi insan əlləri ilə yaradılıb və bu baxımdan fundamental prinsiplərimizdən müəyyən mənada uzaqlaşmanı ifadə edir".

Tədbirdə Mikelancelo Pistolettonun yaradıcılıq axtarışlarından da söz açılıb. Vurğulanıb ki, italiyalı rəssamın əsas əsərlərindən biri təbiət və cəmiyyətin birgə mövcud olduğu harmonik gələcəyə rəğmən, özünəməxsus ifadə üsulu olan "Terzo Paradiso" ("Üçüncü cənnət", 2003) adlı simvoldur. "Üçüncü cənnət" rasional, balanslaşdırılmış, sosial-məsuliyyətli dünyanın axtarılması istiqamətində "həyatın dünyaya qaytarılması məqsədilə süni olan hər şeyin, o cümlədən elm və texnologiyaların incəsənət ilə bir araya gətirilməsi" kimi sosial məsuliyyəti bəyan edir.

Mikelancelo Pistoletto fərdi sərgisi üçün yeni instalyasiyaların aparıcı qüvvəsi olaraq bu ideologiyanın tətbiqini davam etdirir. Bu instalyasiyalar rəssamın seçilmiş erkən əsərləri ilə müəyyən dialoq kimi təqdim edilir. "Sosial məsuliyyət" anlayışı, diqqəti Pistolettonun metodologiyasına yönəldən silsilə tədris proqramları, eləcə də rəssamın orta məktəblilər üçün təsis edilmiş "Cittadellarte" fondu, məktəblilər və gənc rəssamlar üçün seminarlar, universitet tələbələri üçün isə silsilə mühazirələr vasitəsilə daha qabarıq şəkildə ifadə edilir. Bir il ərzində keçirilən bu tədris proqramı şagirdlərin sosial məsuliyyət və yaradıcılıq proseslərinə yanaşmasını inkişaf etdirmək və genişləndirmək məqsədilə Azərbaycanın bütün məktəblərində azərbaycanlı müəllimlərin təlimləndirilməsi və hazırlığını nəzərdə tutur.

Rəssamın yaradıcılığında "Üçüncü cənnət" adlı simvolu hər yerdə görmək olar. Bu simvol üç birləşdirici halqanın təsvir edildiyi riyazi sonsuzluq işarəsinin modifikasiya olunmuş versiyasıdır. Simvolda kənar halqalar "təbiət" və "süniliyi" təmsil edir və nisbətən daha böyük halqa ilə birləşərək "yeni bəşəriyyəti" ifadə edir. "Arte Povera" cərəyanının banisi sayılan Pistolettonun bədii yaradıcılıq təcrübəsi rəssamlıq, heykəltəraşlıq və perfomans kimi sahələri əhatə edir. 1960-cı ildən etibarən güzgülü səth onun yaradıcılığında müntəzəm olaraq təkrarlanan mövzu sayılır və özünüifadə üçün məkan yaratmaqla yanaşı, rəssamın performativ sənətə marağını nümayiş etdirir.

İyunun 10-dək davam edəcək sərginin kuratoru Björn Geldhofdur.

Qeyd edək ki, hər iki sərgiyə ictimai baxış aprelin 1-dən başlayır.

# Dördüncü Aİ-Türkiyə sammiti

*Tərəflər kompromisə gələ bilmədilər*



Srağagün Bolqarıstanın Varna şəhərində sayca dördüncü Avropa İttifaqı-Türkiyə sammiti keçirilmişdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Avropa İttifaqı (Aİ) Şurasının sədri Donald Tusk, Avropa Komissiyasının sədri Jan-Klod Yunker və Aİ-nin hazırkı sədri, Bolqarıstanın Baş naziri Boyko Borisovun qatıldığı zirvə görüşündə Aİ ilə Türkiyə arasında qarşılıqlı etimadın bərpası istiqamətində konkret addımlar atılmasına ümid bəslənirdi. Lakin danışıqlar zamanı tərəflərin mövqelərinin yaxınlaşması müşahidə edilmədi.

Gözləmək olardı ki, Varnada, heç olmasa, 2016-cı il martın 18-də Brüsseldə keçirilmiş üçüncü sammitdə əldə edilmiş razılaşmaların reallaşdırılması istiqamətində hansısa konkret addım atılacaq. Xatırladaq ki, o vaxt Ankara və Brüssel Suriyada silahlı münaqişə başladıqdan sonra Avropaya qaçqın axınını dayandırmaq üçün saziş imzaladı. Sazişə görə, Türkiyə Yunanıstana gəlmiş qaçqınları qəbul etməli, Aİ ölkələri ilə birlikdə Egey dənizində qeyri-qanuni köçü nəzarət altına almalı idi. Bunun müqabilində Aİ Türkiyədə məskunlaşmış suriyalı qaçqınların gündəlik ehtiyaclarını qarşılamaq üçün 6 milyard avro məbləğində yardım göstərməli, 2016-cı il iyunun sonunadək Türkiyə vətəndaşlarının Şengen zonası ölkələrinə vizasız səyahətini təmin etməli, habelə Türkiyənin Aİ-yə üzvlüyü barədə danışıqlar bərpa olunmalı və Brüssellə Gömrük İttifaqına dair sazişin yeniləndirilməsi istiqamətində səylər davam etdirilməlidir.

Qeyd etmək lazımdır ki, Türkiyə saziş çərçivəsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmiş, nəticədə Avropaya qaçqın axını dayanmışdır. Ancaq eyni sözləri Aİ haqqında demək olmaz. Belə ki, Aİ vəd etdiyi 6 milyard avrodan indiyədək yalnız 1 milyard 850 min avro vermişdir, qalan məbləği isə ayırmağa tələsmir. Aİ ilə viza rejiminin sadələşdirilməsi, üzvlük danışıqlarının bərpası və Gömrük İttifaqının yeniləndirilməsi məsələlərinin həlli istiqamətində heç bir addım atılmamışdır.

Sammitin iştirakçıları keçirdikləri birgə mətbuat konfransı zamanı tərəflər arasında fikir ayrılıqlarına toxundular. Aİ Şurasının sədri Donald Tusk bildirdi ki, Aİ Türkiyənin qanunun aliliyinə əməl etməməsindən narahatdır: "Deyə bilərəm ki, biz öz narahatlığımızı ifadə etdik. Bu, uzun siyahıdır". Yeri gəlmişkən, Türkiyə də sammitin gedişində qayğılarını yazılı şəkildə təqdim etdi. Tuskun dediyinə görə, danışıqlar zamanı söhbət ilk növbədə Aİ vətəndaşlarının Türkiyədə həbs olunmasından, Ankaranın dəstəyi ilə Suriyanın Afrin bölgəsinin tutulmasından və Türkiyə Silahlı Qüvvələrinin Kipr sularında qaz kəşfiyyatı işlərinə mane olmasından getdi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sammitin yekunlarına münasibət bildirərkən Brüsseli ikili standartlar və riyakarlıqda ittiham etdi. Ərdoğan tamamilə haqlıdır: konkret öhdəliklər üzərinə götürən tərəf bu öhdəlikləri yerinə yetirməmək üçün müxtəlif bəhanələr gətirirsə, onun riyakardan başqa adı yoxdur.

Tuskun iddialarına gəlincə, sirr deyil ki, Aİ rəsmiləri avropalıların Türkiyə ərazisində yerli qanunları pozmasını normal sayır və qanun pozuntularına başqa don geydirirlər. Məsələn, son vaxtlar Aİ dairələri Türkiyənin sərhədini keçən iki yunan hərbçisinin həbs olunması ətrafında əməlli-başlı şou düzəldib. Həmin hərbçilərin azıb sərhədi pozması iddiasını əldə olunmuş dəlillər təkzib edir. Türkiyənin müvafiq dövlət orqanları məsələni araşdırıb qanun çərçivəsində qərar qəbul edəcək. Rəsmi Ankara yunan hərbçiləri barədə ədalətli qərar qəbul olunacağına təminat verir. Lakin Aİ oxşar məsələlərə münasibətdə eyni mövqe sərgiləmir. Xatırladaq ki, 15 iyul 2016-cı il dövlət çevrilişində iştirak etmiş 8 türkiyəli hərbçi helikopterlə Yunanıstana qaçmışdır. Qiyamçıların heç biri hələ də Türkiyəyə təhvil verilməyib, halbuki iki dövlət arasında müvafiq saziş var. Bundan əlavə, Aİ-nin digər dövlətləri də Türkiyədə cinayət törədib Avropaya qaçmış şəxsləri Ankaraya təhvil verməkdən boyun qaçırır. Təkcə bir misal gətirmək kifayətdir. Türkiyə indiyədək Almaniyadan sübut-dəlillər təqdim etməklə təxminən 4500 PKK terrorçusunu təhvil verməyi tələb etmiş, ancaq onların heç birini geri ala bilməmişdir.

Kipr sularında qaz yataqlarının kəşfiyyatı məsələsinə gəlincə, bu məsələyə münasibətdə də Aİ-nin mövqeyi konstruktivlikdən uzaqdır. Türkiyə Prezidenti mətbuat konfransında Ankaranın məsələyə yanaşmasını izah etdi. Ərdoğan nəzərə çarpdırdı ki, Kipr türklərinin adaya bitişik rayonlarda təbii ehtiyatların kəşfiyyatı və istismarına dair qərarların qəbulu sisteminə qoşulması zəruridir. O əlavə etdi ki, Kiprin türk icmasının qərarların qəbulu prosesinə qatılmaq haqqı beynəlxalq hüquq normalarına əsaslanır və adada münaqişənin tənzimlənməsi üzrə danışıqlar prosesinin gedişindən asılı olmayaraq təmin edilməlidir.

Görünən odur ki, Aİ ilə Türkiyə arasında qarşılıqlı etimadın olmaması tərəflərdən birinin digərinin milli maraqlarına, xüsusilə təhlükəsizliklə bağlı qayğılarına məhəl qoymamasından qaynaqlanır. Belə olmasaydı, Aİ Türkiyənin terrorizmə qarşı uzun illərdir apardığı mübarizəyə başqa cür yanaşar, ikili standartlardan çıxış etməzdi. Məlum olduğu kimi, Türkiyə İŞİD, FETÖ, PKK, PYD, YPG terrorçu təşkilatları ilə üz-üzədir. Aİ dövlətləri DAİŞ istisna olmaqla qalan qruplaşmalara qucaq açır. Avropa Parlamentinin binasında Aİ-nin də terrorçu təşkilat kimi qəbul etdiyi PKK-nın "fəaliyyət"ini əks etdirən sərgi təşkil olunursa, burada yalnız ikili standartlardan söhbət gedə bilər. Avropa parlamentarları PKK-nın qanlı əməllərini "silahlı mübarizə" kimi qiymətləndirirlərsə, onların iç üzünü açmağa ehtiyac yoxdur. PKK, PYD, YPG terrorçu təşkilatlarının üzvləri və tərəfdarları Avropada sərbəst gəzirlər, müvafiq dövlət orqanları isə onların fəaliyyətinə göz yumur.

Brüsselin Ankara ilə münasibətləri nizama salmaq üçün irəli sürdüyü tələblər mahiyyət etibarilə Türkiyənin milli müstəqilliyini və ərazi bütövlüyünü hədəfə alıb. Belə ki, Aİ Ankaranı PKK terrorçuları ilə mübarizəni dayandırıb ölkənin cənub-şərqində vəziyyəti danışıqlar yolu ilə nizama salmağa çağırır. Eyni sözləri Türkiyə Silahlı Qüvvələrinin Afrində keçirdiyi hərbi əməliyyata Aİ-nin münasibəti haqqında da demək olar. Brüssel anlamaq istəmir ki, Ankaranın kürd xalqı ilə heç bir problemi yoxdur, ölkənin cənub-şərqində və Suriyanın Afrin bölgəsində keçirilən hərbi əməliyyatların məqsədi terrorizmin kökünü kəsmək, həmin əraziləri terrorçulardan təmizləyib dinc əhalini əmin-amanlığa qovuşdurmaqdır.

Varna sammiti nəticəsiz başa çatsa da, dialoqun özünün baş tutması faktı müsbətdir. Yunker danışıqların davam edəcəyinə zəmanət verib. Öz növbəsində Bolqarıstanın Baş naziri bu il iyunun sonunadək daha bir sammit təşkil edəcəyini bildirmişdir. Növbəti zirvə görüşünə hələ vaxt var. Ola bilsin ki, Brüssel hər şeyi yenidən ölçüb-biçəcək, Aİ ilə Türkiyə arasında etimadın bərpası naminə yeni sammit üçün konstruktiv təkliflər hazırlayacaq.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Qədim və müasir Gəncə "Ölkəmizi tanıyaq" layihəsinin iştirakçılarına xoş təsir bağışlayıb

Respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi altında keçirilən maarifləndirici tur-aksiya davam edir.

AZƏRTAC xəbər verir ki, Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə tur-aksiyada iştirak edən Abşeron, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Şamaxı, İmişli və Füzuli rayonlarından olan şagirdlər martın 27-də Gəncənin tarixi abidələri, müqəddəs məkanları, mədəniyyət mərkəzləri, eləcə də son illərdə inşa edilən turizm və istirahət məkanları ilə tanış olublar.

Maarifləndirici tur-aksiya iştirakçılarının üz tutduqları ilk məkan böyük mütəfəkkir, dahi Azərbaycan şairi Nizami Gəncəvinin türbə kompleksi olub. Məktəblilər əvvəlcə Şeyx Nizaminin və şairin valideynlərinin qəbirlərini ziyarət ediblər. Məlumat verilib ki, Nizami Gəncəvinin qəbri üzərində ilk türbə XIV əsrdə tikilib. Bu vaxtadək şairin məzarı üzərində müxtəlif əsrlərdə dörd dəfə türbə inşa edilsə də, onların heç biri bu qədər möhtəşəm və əzəmətli olmayıb. Ümumi hündürlüyü 24 metr olan hazırkı türbənin inşasında qırmızı qranitdən istifadə edilib.

Şagirdlər türbə ətrafında yaradılan şəraitlə tanış olub, Nizami Gəncəvinin poemalarının motivləri əsasında işlənən heykəllərə baxıb, şəkillər çəkdiriblər.

Sonra tur-aksiya iştirakçıları Nizami Gəncəvi Muzeyinə gəliblər. Bildirilib ki, muzeyin binasının təməli 2013-cü ildə qoyulub. Bundan bir il sonra Prezident İlham Əliyevin Gəncəyə növbəti səfəri zamanı muzey istifadəyə verilib.

Nizami Gəncəvinin zəngin irsini əks etdirən eksponatların yerləşdiyi muzeydə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin dahi şairin yubileylərinin keçirilməsi, məqbərəsinin bərpası, əsərlərinin tərcüməsi və tədqiq olunması ilə bağlı fərman və sərəncamları sərgilənir. Muzeydə dahi şairin 800 və 840 illik yubileyləri münasibətilə nəşr olunan kitab və monoqrafiyalar da nümayiş etdirilir.



Burada məktəblilər vaxtilə dahi şairin əsərlərinə həsr olunan və hazırda dünyanın Metropoliten, Viktoriya və Albert, Drezden, Vatikan kimi muzeylərinin ən qiymətli eksponatları sırasında yer alan, "Xəmsə"nin motivləri əsasında işlənən miniatürlərin surətləri ilə tanış olublar.

Müsəlman dünyasının müqəddəs ziyarətgahlarından olan "İmamzadə" dini kompleksi ilə tanışlıq da şagirdlər üçün maraqlı keçib. Məlumat verilib ki, bu müqəddəs məkanda 739-cu ildə beşinci İmam Məhəmməd Bağırın oğlu Mövlanə İbrahim dəfn edilib. "İmamzadə" ziyarətgahı əsrlər boyu insanların üz tutduğu müqəddəs məkanlardandır. Prezident İlham Əliyevin təşəbbüsü ilə ziyarətgahda geniş abadlıq-quruculuq və yenidənqurma işləri həyata keçirilib.

Bildirilib ki, "İmamzadə" kompleksinin ətrafında böyük kompleks yaradılıb. Belə ki, yenidənqurma işlərindən sonra Şahzadə İbrahimin qəbri üzərində tikilən tarixi türbələr saxlanılmaqla üzəri günbəzlə tamamlanan möhtəşəm türbə, ətrafında isə minarələr inşa edilib. Ziyarətgahda möminlərin rahat ibadəti üçün Hüseyniyyə və Zeynəbiyyə məscidləri, dəstəmazxana, mehmanxana və dini muzey tikilib. İnsanların mənəvi saflıq, doğruluq və halallıq məkanı olan "İmamzadə" kompleksi məktəblilərdə böyük maraq oyadıb.

Daha sonra tur-aksiya iştirakçıları Heydər Əliyev adına meydanda ümummilli liderin abidəsini ziyarət edib, xatirəsini ehtiramla anıblar.

Məktəblilər 1606-cı ilin yadigarları olan Şah Abbas məscidi, Çökək hamam, Uğurlu xan karvansarası ilə tanış olub, Gəncə xanlığının sonuncu hökmdarı Cavad xanın türbəsini ziyarət ediblər.

Açıq səma altında muzeyi xatırladan Cavad xan küçəsindəki gəzinti də məktəblilərə xoş təsir bağışlayıb. Şagirdlər küçə boyu irəlilədikcə onlara Gəncənin zəngin və çoxəsrlik memarlığının ən gözəl örnəklərinin qorunub saxlandığı, vaxtilə şəhərin mülkədarları və varlı tacirləri tərəfindən inşa edilən imarətlər, tarixi tikililər haqqında ətraflı məlumat verilib.

Tur-aksiya iştirakçıları daha sonra Məhsəti Gəncəvi adına Mədəniyyət Mərkəzinə gəliblər. Mədəniyyət ocağı ilə tanışlıq zamanı bildirilib ki, mərkəz Heydər Əliyev Fondunun dəstəyi ilə tikilib. Burada XII əsrdə yaşamış Azərbaycanın ilk qadın şairəsi Məhsəti Gəncəvinin həyat və yaradıcılığı haqqında zəngin materiallar toplanıb. Bundan başqa, mərkəzdə muzey, qalereya, kitabxana, müxtəlif tədbirlər üçün iclas zalı və sərgi salonu fəaliyyət göstərir.

Sonda tur-aksiya iştirakçıları bu yaxınlarda istifadəyə verilmiş və açılışında Prezident İlham Əliyevin iştirak etdiyi Mirzə Şəfi Vazeh Muzeyinə və şairin adını daşıyan parka gəliblər.

Bildirilib ki, şəhərin "Gülüstan" ərazisində yerləşən muzeyin inşasına 2016-cı ilin martında başlanılıb və tikinti işləri 2017-ci ilin noyabrında sona çatdırılıb. Milli memarlıq üslubunda inşa olunan muzeyin ətrafında Mirzə Şəfi Vazehin adını daşıyan park salınıb.

Tur-aksiya çərçivəsində şagirdlərin ekskursiyası martın 29-dək davam edəcək.

# Bu yaz bir başqa yazdır...

Beynəlxalq Poeziya Günü münasibətilə Novruz bayramı günlərində yeni yaradılmış Cəlilabad Poeziya Klubu Azərbaycan Yazıçılar Birliyi (AYB) Lənkəran filialının qonağı olub.

Regionda yaşayıb-yaratmış qələm adamlarının xatirəsinin yad olunduğu tədbiri AYB-nin Lənkəran filialının təmsilçisi Ağamir Cavad açaraq iştirakçıları salamlayıb. AZƏRTAC xəbər verir ki, "Bu yaz bir başqa yazdır..." devizi altında keçirilən görüşün ideya müəllifi Qardaşxan Əzizxanlı tədbirin məqsədindən danışıb. Bildirib ki, qarşıdan respublikanın ictimai-siyasi həyatında çox mühüm rol oynayacaq prezident seçkiləri və dövlət səviyyəsində qeyd ediləcək möhtəşəm yubileylər gəlir. Bu ab-hava regionların ədəbi mühitində də hiss olunmaqdadır.

Cəlilabad Poeziya Klubunun sədri, istedadlı şair Əlizadə Nuri, mətbuat katibi filologiya üzrə fəlsəfə doktoru Bilal Alarlı, poeziya məsələləri üzrə katib Əlirza Həsrət, ev sahiblərindən yazıçı Qafar Cəfərli, şairlər İslam Rzayev, Balayar Sadiq, riyaziyyat üzrə fəlsəfə doktoru Əlişirin Şükürlü və başqaları çıxış edərək poeziyanın nəzəri məsələlərinə toxunaraq yeni şeirlərini oxuyublar.

Sonda muğam və xalq mahnıları səslənib.

# “Təmiz Şəhər”ASC-yə məxsus xüsusi texnikalar üçün ehtiyat hissələrin satın alınması ilə əlaqədar

## açıq tenderə dəvətin uzadılması

Tender 1 LOT üzrə keçirilir:

***“Təmiz Şəhər”ASC-yə məxsus xüsusi texnikalar üçün ehtiyat hissələrin satın alınması.***

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu “Təmiz Şəhər” ASC, Bakı şəhəri, Xocalı prospekti 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon 012 - 464 41 11)

İştirak haqqı **400** manat.

***AZN hesabı***

**Benefisiarın adı:** Dövlət Xəzinədarlığı Agentliyi
**Hesab nömrəsi:** AZ07CTRE00000000000004587901
**SWIFT:** CTREAZ22
**VÖEN:** 1401555071
**Kod:** 210005
**Müxbir hesab:** AZ41NABZ01360100000000003944
**Xəzinə hesab kitabın (XHK) nömrəsi:** 4587901
**Təsnifat kodu:** fond 7
**Büdcə səviyyəsi:** 142340

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. iddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*3. tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*4. tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*5. tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*6. vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*7. Dövlət Sosial Müdafiə Fondundan arayış;*
*8. iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*9. müəssisənin təcrübəsi haqqında məlumat;*
*10. iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti;*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30 mart 2018-ci il** tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **10 aprel 2018-ci il,** saat 17:00-a qədər “Təmiz Şəhər” ASC-nin Xocalı prospekti 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **11 aprel 2018-ci il,** saat 17:00-da Bakı şəhəri, Xocalı prospekti 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# Azərbaycan Respublikasının Mərkəzi Bankı

*“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq*

## açıq tender elan edir

1. Azərbaycan Respublikası Mərkəzi Bankının binalarında istismar müddəti başa çatmış qaz tipli avtomatik yanğınsöndürmə sistemlərinin yenilənməsi işlərinin satın alınması.

Tender proseduru **30 aprel 2018-ci il tarixində saat 15:00-da** Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, Rəşid Behbudov küçəsi 90) keçiriləcəkdir.

2. Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi **13 iyun 2018-ci il** tarixinədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) % məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi üzrə vaxtı keçmiş öhdəliklərinin olmaması barədə dövlət orqanlarından arayış;*
- *İddiaçıya “Yanğından mühafizə sistemlərinin və vasitələrinin quraşdırılması, texniki xidməti və təmiri” fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş xüsusi razılığın (lisenziyanın) surəti;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

3. İddiaçı tender təklifini və tender təklifinin bank təminatını **27 aprel 2018-ci il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci **18 aprel 2018-ci il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, Rəşid Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

4. İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına **200 (iki yüz)** manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı,**
**Kod 501004, VÖEN 9900071001,**
**Hesab: AZ25NABZ01701190000000001944,**
**Müxbir hesab**
**AZ74NABZ01451700000000001944,**
**S.W.I.F.T. BİK NABZAZ2C**

5. Satınalmaya başlanma vaxtı:
Satınalma müqaviləsi imzalandığı gündən.

6. Malların təchizatı və işlərin görülməsi müddəti:
Satınalma müqaviləsi imzalandığı gündən **90 (doxsan)** təqvim günü müddətində.

7. Qiymətləndirmə meyarları:
Qiymət və texniki amillər (iş təcrübəsi, əməkdaşların peşəkarlığı və maddi-texniki baza).

8. Tenderdə iştirak etmək istəyən iddiaçı şirkətlər iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, Rəşid Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər. Əlaqələndirici şəxs:

**Elvin Şirdanov (Hüquq departamenti),**
**telefon: 493-11-22 (dax.tel:428)**
**Kənan Əliyev (İnzibati departament),**
**telefon: 493-11-22 (dax.tel: 254).**

***Tender komissiyası***

# Xızı Rayon İcra Hakimiyyəti başçısının Xızı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 2018-ci ildə Xızı şəhərində Avtomobil yollarının əsaslı təmiri və şəhərdaxili abadlıq işlərinin aparılması üçün

## açıq tender elan edir

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

**LOT - 1** Avtomobil yollarının əsaslı təmiri
**LOT - 2** Xızı şərində abadlıq işləri

Tikinti işləri ilin sonunadək başa çatdırılmalıdır . Tenderdə iştirak etmək üçün iddiaçılar hər LOT üzrə 150 (bir yüz əlli) manat məbləğində pul vəsaitini aşağıdakı hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu tender komissiyasından ala bilərlər.

**Təşkilat:** Xızı Y.X.O.
**Hesab:** AZ94AİİB36010019442400201124
**VÖEN:** 7800010811
**Bank:** “Kapital Bank”ın Xızı rayon filialı
**Kod:** 200242
**VÖEN:** 9900003611
**M/H:** AZ37NABZ01350100000000001944
**S.W.İ.F.T.BİK:** - AİİBAZ 2X

İştirak haqqı heç bir halda geri qaytarılmır, tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: mövcud qanunvericiliyə uyğun olaraq ən sərfəli tender təkliflərinə, yüksək keyfiyyətə, kadr potensialına, analoji işlər üzrə təcrübəsinə maliyyə və texniki imkanlarına.

İddiaçılar tenderdə iştirak etmək üçün 2 may 2018-ci il saat 16:00-a qədər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının bank sənədi;
- iddiaçının son bir ildə maliyyə vəziyyəti barədə bank arayışı;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;
- iddiaçıların tender təklifləri Azərbaycan dilində tərtib olunmalıdır.

Tender təklifi 2 nüsxədə (əsli və surəti) tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı ilə birlikdə 11 may 2018-ci il saat 16:00-a qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə Xızı şəhər İƏD-si üzrə nümayəndəliyə (“Mirzə Əbdülqədir Vüsaqi” küçəsi №-28) təqdim edilməlidir.

Tender təklifi tender proseduru keçirildiyi tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır. Tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı tender proseduru keçirildiyi tarixdən ən azı 60 bank günü qüvvədə olmaqla tender təklifi ilə birlikdə təqdim olunur. İddiaçıların tender zərfləri 14 may 2018-ci il saat 11:00-da Xızı şəhər İƏD-si üzrə nümayəndəliyində (“Mirzə Əbdülqədir Vüsaqi” küçəsi №-28) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender haqqında məlumatları yuxarıda qeyd olunan ünvanda əlaqələndirici şəxs Qiyaslı Hüseyn Saday oğlundan ala bilərlər.

**Telefon: (023-31) 5-03-16**

***Tender komissiyası***

# BİLDİRİŞ

Göyçay Rayon İcra Hakimiyyətinin LOT-1 Göyçay şəhərində asfalt-beton işlərinin görülməsi, LOT-2 Göyçay şəhərində abadlıq işlərinin görülməsi işlərinin satın alınması, LOT-3 Göyçay şəhərində mənzillərin əsaslı təmiri işləri üçün 27 mart 2018-ci il tarixdə keçirilməsi nəzərdə tutulan açıq tender proseduru təkliflərin kifayət qədər olmadığı üçün ləğv olunur.

***Tender komissiyası***

# BİLDİRİŞ

*“Təmiz Şəhər” ASC tərəfindən 12 mart 2018-ci il tarixdə Xüsusi texnika vasitəsilə xidmətin göstərilməsi işlərinin satın alınması məqsədi ilə keçirilən açıq tenderdə fiziki şəxs: Rüfət Arif oğlu Axundov qalib gəlmişdir.*

***Tender komissiyası***

# İcbari Sığorta Bürosu Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçıların reyestrini təqdim edir

İSB İCBARİ SIĞORTA BÜROSU Compulsory Insurance Bureau

| Sığortaçının adı | Reyestrə daxilolma tarixi |
|---|---|
| 1. “AXA MBASK” Sığorta Şirkəti ASC | 15 dekabr 2015-ci il |
| 2. “Xalq Sığorta” ASC | 15 dekabr 2015-ci il |
| 3. “AZSIĞORTA” ASC | 16 dekabr 2015-ci il |
| 4. “Meqa Sığorta” ASC | 16 dekabr 2015-ci il |
| 5. “AtaSığorta” ASC | 16 dekabr 2015-ci il |
| 6. “PAŞA Sığorta” ASC | 17 dekabr 2015-ci il |
| 7. “Standard Insurance” Sığorta Şirkəti ASC | 18 dekabr 2015-ci il |
| 8. “Azərbaycan Sənaye Sığorta” ASC | 18 dekabr 2015-ci il |
| 9. “İpək Yolu Sığorta” ASC | 21 dekabr 2015-ci il |
| 10. “Atəşgah” Sığorta Şirkəti ASC | 21 dekabr 2015-ci il |
| 11. “Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti” | 22 dekabr 2015-ci il |
| 12. “Qala Sığorta” ASC | 29 mart 2016-cı il |
| 13. “Günay Sığorta” ASC | 25 avqust 2016-cı il |

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Redaksiya və nəşr işləri şöbəsinin əməkdaşı
**FƏXRƏDDİN CUMAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Xanlar Fətiyev və Təlatüm Quliyev Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyev və şuranın kollektivi icraçı direktor Fərasət Qurbanova anası
**HACIXANIM QURBANOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatının Redaksiya və nəşr işləri şöbəsinin əməkdaşları Hafiz Babayev, Ülviyyə Abdullayeva, Mehman Namazov, Sədaqət Cabbarova, Aidə Əhmədova, Məlahət Əsədova, Mübariz Əsgərov, Sevinc Güləliyeva, Afaq Həsənova, Pərvanə Həsənova, Fidan Nəbiyeva, Nəzrin Əliyeva, Nigar İsmayılova, Sevinc Yusifzadə, Yaqut Bədirova, Gövhər Hüseynova və Tahirə Mirbağırova iş yoldaşları
**FƏXRƏDDİN CUMAYEVİN**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin İşlər İdarəsi Maliyyə şöbəsinin əməkdaşları iş yoldaşları Cavid Möhbalıya əmisi
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhəri Nizami rayon Gigiyena və Epidemiologiya Mərkəzinin kollektivi mərkəzin direktoru Nadir Eyvazova anası
**MAYA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və komitənin kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Göyçaydan Mehdi Səlimzadə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azərenerji” ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Məhəmmədəli Salmanov Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Nizami Rayon Məhkəməsinin sədri Ələddin Cəfərov Yasamal Rayon Polis İdarəsinin rəisi İsfəndiyar Möhbalıyevə əmisi
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin rektorluğu Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı, professor Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin rektorluğu “Azərbaycan” qəzetinin Humanitar siyasət şöbəsinin redaktoru İradə Əliyevaya anası
**CƏMİLƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi II müalicə-profilaktika fakültəsinin dekan müavini Zabit Məmmədova anası
**PAKİZƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı, professor Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərbaycan” nəşriyyatının kollektivi iş yoldaşları Əbülfəz Nəcəfova anası
**PƏRİ NURƏLİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Müdafiə Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Röfət Müfid-zadə, Rəyasət Heyətinin üzvləri və aparat işçiləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vəkillər Kollegiyasının Rəyasət Heyəti Vəkillərin İntizam Komissiyasının sədr müavini İlhamə Həsənovaya atası
**ZAKİR HƏSƏNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərov Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə qardaşı
**FAİQ MÖHBALIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
“Azərbaycan “ qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan “ nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8922
Sifariş 818